**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi:onun mahiyyəti,təmin etmə metodları və inkişaf istiqamətləri” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Xasıyev İsfəndiyar Azər**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d.,dos.Əhmədov Fariz Saleh**

**_____________imza**

**"___" ____________ 2019-cu il**

**"Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi:onun mahiyyəti, təmin etmə metodları və inkişaf istiqamətləri" mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 – "İqtisadiyyat"**

**İxtisaslaşma: Təhsil,elm və sosial-mədəni sahələrin iqtisadiyyatı**

**Qrup: 50**

**Magistrant:**
**Xasıyev İsfəndiyar Azər**

**___________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d.,b/m Kərimzadə Mehriban Vaqif**

**___________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d.,b.m Suqra Hümbətova İnqilab**

**____________________imza**

**Kafedra müdiri:**
**i.e.d.,prof. Kəlbiyev Yaşar Atakişi**

**__________________ imza**

**BAKI 2019**

**Food security: its essence, supply methods and development directions**

## Abstract

**In current global market, international trade between countries has intensified, especially in export and import of food products. However, international trade of food products imposes a threat on food safety of countries because once the proper inspection of exported and imported products is not conducted, the likelihood of food safety risks increase critically, especially in developing countries. In addition, as world population has been increasing since decades and its is expected to increase further, the problems associated with lack of sufficient, high-quality and nutritious food products. Therefore, there is a need for further improving productivity of countries in economic sectors that would contribute to national and global food safety in light of increasing food safety risks. Eventually, the purpose of this research is to identify present condition of food safety in Azerbaijan Republic by analyzing agricultural productivity of the country. Theoretical and methodological aspect of the research is based on the study of the problems of agrarian and food markets of foreign and domestic economists, the organization of economic mechanisms of food supply of the population. In order to achieve research aim, the theoretical framework of the food safety was identifie and explained in this research. In this research, current state of food safety in global market and Azerbaijan Republic were examined through collecting data from secondary sources. One of the most important problems facing the president at the moment is the provision of food security. Reliable food supply in the Republic of Azerbaijan is one of the main directions of the state's economic policy. Food security is based on mobilization of internal resources. This approach is based on a number of changes in the development of national economic reform strategies, sustainable development, the use of effective legal norms, and improving the living conditions of the population.**

**Key Words: Food Safety, Agricultural Productivity, Global Food Market**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | | |
|---|---|---|
| **QTA** | **-** | Qida Təhlükəsizliyi Agentliyi |
| **ƏKTT** | - | Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| **ƏST** | **-** | Ərzaq Standartları Agentliyini |
| **ÜDM** | - | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ.........................................** | **7** |
| **I Fəsil** | **ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASININ NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI..........................** | **9** |
| 1.1. | Ərzaq təhlükəsizliyinin təmin edilməsinin nəzəri əsasları və əhəmiyyəti.......................................... | 9 |
| 1.2. | Ölkənin ərzaq təhlükəsizliyinin səviyyəsini müəyyənləşdirmək üçün istifadə edilən metodika və metodolgiya.......................... | 22 |
| 1.3. | Ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlətin iqtisadi siyasətinin mühüm istiqaməti kimi ........................................ | 25 |
| **II Fəsil** | **ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASININ MÜASİR VƏZİYYƏTİ ..........................................** | **29** |
| 2.1. | Dünya ərzaq bazarının müasir vəziyyəti .......................... | 29 |
| 2.2. | Azərbaycan ərzaq bazarının müasir vəziyyəti ...................... | 35 |
| 2.3. | Aqrar sahənin inkişafının ərzaq təhlükəsizliyinin təmin edilməsinə təsiri.......................................... | 45 |
| **III Fəsil** | **ƏRZAQ TƏHLÜKƏSİZLİYİ İQTİSADİ SİYASƏTİN ƏSAS İSTİQAMƏTİ KİMİ ..........................................** | **50** |
| 3.1. | Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün dövlət mexanizminin təkmilləşdirilməsi .......................................... | 50 |
| 3.2. | Kənd təsərrüfatı istehsalının səviyyəsinin artırlmasının prioritet istiqamətləri.......................................... | 54 |
| 3.3. | Ölkənin ərzaq resursları ilə təminatının inkişaf perspektivləri........................ | 58 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR..........................................** | **67** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI..................................** | **70** |
| | Cədvəllərin siyahısı.......................................... | 73 |
| | Şəkillərin siyahısı.......................................... | 73 |
| | Qrafiklərin siyahısı.......................................... | 73 |

# GİRİŞ

**Tədqiqat işinin aktuallğı:** Ərzaq təhlükəsizliyi milli və iqtisadi baxımdan ölkə təhlükəsizliyinin ayrılmaz tərkib hissəsidir. Ərzaq məhsulları ilə təmin olunma əhalinin dövlət üçün vacib əmiyyəti kəsb edib və həlli mühüm xarakter daşıyan iqtisadi və sosial problemlərdən biridir. Belə ki, problemin həlli sosial ,iqtisadi,milli, demoqrafik ,ekoloji faktorların daha geniş dairəsini əhatə edir. Hazırda ölkə prezidentinin diqqət mərkəzində saxladığı ən mühüm problemlərdən olan ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Azərbaycan Respublikasında əhalinin lazımi ərzaq ilə təminatı dövlətin iqtisadi siyasətinin bilavasitə istiqamətlərindən biridir. Ərzaq təhlükəsizliyinin təmin olunması daxili resursların mobilizə edilmiş, əsaslanmışdır. Bu yanaşma ölkədaxili iqtisadi islahatların milli şəkildə strateji işlərin işlənib hazırlanması, dayanıqlı daimi inkişafı, hüquqi normalardan effektiv istifadə, əhalinin həyat rifahıının yaxşılaşdırılması ilə əlaqədar bir çox dəyişikliklərə əsaslanır.

**Tədqiqatın məqsədi və vəzifələri:**

1.Ərzaq təhlükəsizliyinin elmi cəhətdən nəzəri əsaslarının, quruluşunun, göstəricilərin sistematik təhlili;

2.Milli baxımdan iqtisadi təhlükəsizliyin tərkib hissəsi olan ərzaq təhlükəsizliyinin sosial-iqtisadi mahiyyətinin açıqlanması;

3.Milli ərzaq təhlükəsizliyinin vəziyyətinin müəyyən edən, stabilləşdirən və desruktiv faktorların müəyyən edilməsi;

4. Azərbaycanın ərzaq təhlükəsizliyinin müasir vəziyyəti və ölkə əhalisinin əsas qida məhsulları ilə təminatı tendensiyaları;

5. Ölkənin ərzaq təhlükəsizliyi ilə təmin olunmasında dövlətin rolu;

**İstifadə olunmuş tədqiqat metodları:** Dissertasiyanın tədqiqat prosesində sistemli və statistik analiz üsulundan istifadə edilmişdir. Əldə edilmiş mütəlif illər üzrə statistik məlumatlar analiz edilmiş və sistemli şəkildə müqayisə edilmişdir.

**Tətqiqatın informasiya bazası:** Tədqiqat üçün lazım olan informasiya Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tətqiqat, İqtisadiyyat

İnstititunun elmi tədqiqatlarının nəticələri, Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatları, və İnternet İnformasiyası təşkil edir.

**Tətqiqatın Məhdudiyyətləri:**Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi birbaşa əlaqədar olan vahid informasiya bazasının mövcud olmaması və cari il üzrə ərzaq təhlükəsizliyi ilə əlaqədar göstəricilərin qıtlığı tədqiqatın məhdudiyyətləridir.

**Tətqiqatın öyrənilmə səviyyəsi:** Nəzəri və metodoloji aspektdən tədqiqatın əsasını xarici və ölkə iqtisadçı alimlərinin aqrar sahənin və ərzaq bazarının problemlərinin öyrənilməsinə, əhalinin ərzaqla təminatının təşkilatı-iqtisadi mexanizmlərinin formalaşmasına həsr olunmuş elmi əsərlər təşkil edir. Bu əsərlərdə iqtisadi və ərzaq təhlükəsizliyinin bilavasitə təmin olunması məsələləri ətraflı tədqiq olunmuşdur. Bu problem ölkənin məhşur alimləri R.Ə.Balayev, Z.Ə.Səmədzadə, İ.X.İbrahimov, İ.Ş.Qarayev, A.B.Abbasov, A.F. Abbasov, A.K.Ələsgərov, S.V.Salahov, B.X.Ataşov, H.A.Xəlilov ,M.A.Əhmədov, tərəfindən tədqiq olunmuşdur. Onlar aqrar sektorda aqrobiznes və sahibkarlığın inkişafı, ərzaq təhlükəsizliyi və iqtisadiyyatın dövlət tənzimlənməsi problemlərinə həsr olunmuş bir çox əsərlər yazmışlar. Dünya iqtisadiyyat elmində isə bu problem məhşur alimlər L.İ.Abalkin, V.Y. Kostin (aqrobiznesin inkişafının iqtisadi əhəmiyyəti), V.V.Miloserdov, V.İ. Nazarenko (dünya ərzaq təhlükəsizliyi), Y.N. Serova (aqrar iqtisadiyyatın əsasları), S.Q.Afanasyev (ərzaq təhlükəsizliyinin nəzəri əasslərı), C.U. Uornoq (aqrobiznesin əsasları) ,M. Treysi (dünyada kənd təsərrüfatı və ərzaq), və s. tərəfindən araşdırılmışdır.

**Tədqiqatın nəticələri:** Ölkə və dünya əhalisinin artması və ərzaq qıtlığının mövcud olması şəraitində Azərbaycanda ərzaq təhlükəsizliyinin bilavasitə təmin olunması üçün faydalı inkişaf istiqamətləri və dövlətin bu sahədəki rolu müəyyən edilmişdir. Ölkə əhalisinin ərzaqla təmin edilməsi üçün aqrar istehsalın vacibiyyəti aydınlaşdırılmış və bu sahənin inkişaf isqaməti müəyyən edilmişdir.

# I Fəsil ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASININ NƏZƏRİ - KONSEPTUAL ƏSASLARI

## 1.1 Ərzaq təhlükəsizliyinin təmin edilməsinin nəzəri əsasları və əhəmiyyəti

İnkişaf edən beynəlxalq qida ticarətində, ərzaq təhlükəsizliyinin təmin olunması ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Beləki, ərzaqlarla bağlı yaranan xəstəliklər istehlakçıların ərzaq istehsal edən müəssiləsələrə təsir etmişdir.

Qloballaşan beynəlxalq ticarət, beynəlxalq ərzaq ticarətinə müsbət təsir etmişdir. Beləki, ölkələr arasındakı sərhədlər aradan qalxmış, və nəticədə, məhsulların istehsalına və təmininə daha çox ehtiyac yaramışdır. Dünya ticarəti alıcılarada müsbət təsir göstərmişdir, çünki məhsulların qiyməti aşağı düşmüş və məhsul müxtəlifliyi artmişdir.Ancaq, inkişaf edən beynəlxalq ərzaq ticarətindəki ən mühüm problemlərdən biri qida təhlükəsizliyinin təmin edilməsi olmuşdur. Dünya bazarındakı ərzaq tələbinin təmin edilməsi zamanı ərzaq ilə bağlı olan risklərin meydana çıxması artmış və müvafiq tədbirlərin görülməsi üçün zərurət yaranmışdır.

Ölkələrin ərzaq təhlükəsizliyinin təminatının istiqamətlərində çalışıb-çabalamaların bir-birinə birləşdirilməsi, ümumi beynəlxalq təşkilatlarda bu istiqamətdə çalışmalarının optimallaşdırmaq, hazırki ərzaq mənbələrindən istifadənin ən faydali yollarının və mexanizminin modelləşdirilməsi əsas fəaliyyət növlərindən hesab edilir. Ərzaq təhlükəsizliyinin sosial yandan baxmaq, orta sinfin formalaşmasında ərzağa uzaq olmamağın əhəmiyyəti, yoxsulluq və işsizlik problemlərinin həll olunması, qida rejimlərinin mükəmməl hala gətirilməsi, ərzaq problemində sosiyal bərabərsizliyi aradan götürülməsi vacib əhəmiyyət daşıyır. Ərzaq təhlükəsizliyi dünya ölkənlərinin iqtisadi baxımdan inkişafının artımı və səviyyəsinə görə tam uyğunluq təşkil edir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi hazırda səslənmələrin diqqətlə nəzərə alınması, iqlim dəyişikliklərindən asılı olaraq dünya ölkələrinin bir yerdə işləməsi, su, torpaq və başqa ehtiyatlardan səmərə ilə istifadənin təmin edilməsi ilə müasir texnologiyaların vacib fəaliyyət sahələrini gücləndirilməsidir. Davamlı olaraq qida və ərzaq təhlükəsizliyinin təmin

olunması üçün çevik potensial və iqtisadi baxımdan inkişaf səciyyəvilərinə malik iqtisadiyyatın formalaşdırılması ən vacib amildir. Əhalidə yoxsulluq səviyyəsi artdığı halda gəlirləri daxili bazarlarda ərzağın təminatına bəs eləmir və bu halda isə xaricdən gələn idxal miqdarına ərzaq təchizatının möhkəmləndirilməsi ehtiyatları da kifayət dərəcədə zəif hala düşür.

Strateji hədəflərin iqtisadiyyatın inkişafının həciminin müəyyənləşdirilməməsi iqtisadi inkişafı geriyə salır, iqtisadi artımda çətinlik və əhalinin rifah halının yaxşılaşması üçün ehtiyatların formalaşmamasına gətirib çıxarır. Ərzaq məhsulları ilə əhalinin qida təminatının istənilən proseslərin minimum tendensiyası təcili öyrənilməli və təhlükənin qabağını almaq üçün tədbirlər keçirilməlidir. İqtisadi vəziyyətin ölkədə sabitləşdirilməsi, iqtisadi inkişaf addımlarının sürətləndirilməsi, sahibkarlığın inkişafı üçün dövlət dəstəyinin tətbiq edilməsinin genişləndirilməsi, məhsuldar qüvvələrin regional səviyyədə asan və səmərəli yerləşdirilməsi, regionlararası problemlərin aradan götürülməsi, onların arasında olan iqtisadi inkişaf fərqlərinin minimum səviyyəyə endirilməsi vacib vəzifələrdən biridir.Ölkə iqtisadiyyatının inkişaf səciyyəsinə və ehtiyar potensialı, əhalinin ənənəvi və tarixi məşğulluq üzrə, yaşayış tərzıərinə, milli adət və ənənələrə uyğun olan iqtisadi dəyişikliklər və iqtisadi proseslər prioritet istiqamət olaraq qəbul edilir.Belə olan halda ölkə də əhalinin rifah halının yaxşılaşması, ümumi ərzaq məhsullarına əlçatanlılıq və gəlirlərinin artmasının təmin olunmasında güclü potensial yaratmağa imkan verər. Ərzaq təhlükəsizliyi mexanizminin inkar olunması son vəziyyətdə mənfi hallara yol aça bilər. İqtisadi artımda ehtiyatların təmini edilməsi keyfiyyət və kəmiyyət baxımdan xüsusi tarazlaşdırılmalı,iqtisadiyyatın əhatəsinin genişləndirilməsi xüsusiyyətlərinə önəm verilməli, sosial-iqtisadi problemlərin aradan qaldırılması diqqət mərkəzində olmalı, sosial ədalət məslələri mütləq qorunmalı, cəmiyyət və milli iqtisadiyyat arasında səmərəli və sağlam mühitin formalaşdırılması təmin olunmalıdır. Ölkə əhalisi arasında aparılan iqtisadi məqsədlərə çatmaq və iqtisadiyyatın yüksək artım tempinə uyğun gələn gəlirlər əldə edilməli, arzuladıqları ərzaq növlərini almaq qüvvətə malik olmaq üçün sıralı tədbirlər görülməli, qida bazarlarının bolluğunun

təmin olunması, tələb və təkliflər əhalinin gəlirləri və xərcləri balansında müsbət edilməlidir. İnsanlar ərzağa asanlıqla çıxışı təmin edilməli və onları əldə etmək üçün müəyyən imkanlara malik olmalıdır. Bu addımlar fasiləsizlik prinsipi ilə aparılmalı və güclü mexaniz üzərində aparılmalıdır. Ərzaq təhlükəsizliyinin təmin olunmasında dövlət ilə yanaşı,həmdə özəl sektorun payı, sosial məsuliyyəti vacib formada diqqətlə nəzərə keçriliməli, işsizlik və yoxsulluq hallarının həllində birgə əməkdaşlıq imkanlarından istifadəni maksimum səviyyəyə gətirilməlidir. Əhalinin gəlirləri dəyişməyən halda və ya artdığı zaman, onların müəəyən ərzaq məhsullarına tələbatı da bərabər olaraq yüksəlməkdədir. Bu baxımdan, cəmiyyətin ərzaq təhlükəsizliyi və vacib qida məhsulları ilə təmin edilməsi məsələləri obyektiv haldan  çıxış edilməsi ilə dəyərləndirilməli və eyni zamanda uzunmüddətli dövrdə proqnozlaşdırılmalıdır. Ölkədə cəmiyyətin yarısından çoxu regionlarda və kənd yerlərində məskunlaşmışdır. Kənd təsərrüfatı sahələri və aqrar sənaye kompleksinin zamanla inkişafının sürətləndirilməsi, bu sahələrdə müəyyən islahatların aparlması, cəmiyyətin iqtisadi fəallığının möhkəmləndirilməsi qida məhsulları istehsalının növlərinin və həcminin böyüməsi və artırılması əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Başqa tərəfdən də, kənd təsərrüfatının  inkişaf etdirilməsi bazarlarda  da ərzaq ehtiyatının bolluğuna gətirib çıxarır ki, istehlak qiymət-lərinə də müsbət təsir göstərərmək imkanı tanıyır. Nəticədə isə əhali daha geniş növdə və münasib qiymətlərlə hər hansı növ ərzaq məhsullarınıəldə etmək imkanına malik olur, eyni zamanda da əhalinin istehlak tələbatının bərabər həcmdə ödənilməsinə gətirib çıxarır. İstehlak və istehsal qiymətləri əhalinin gəlirləri ilə bərabərlik təşkil etməli, ərzaq məhsulları üzrə inhisaırçılıq istiqamətlərinin qarşısını almalı, süni qiymət artımına yol verilməməli, bazarda ərzaq bolluğuna mane ola bilən halların qarşısı dərhal aradan götürülməli, önləyici hərəkətlər və sırası ilə tədbirlər görülməlidir.

Belə olduğu halda, cəmiyyətin vacib qida növləri ilə təmin ediməsi sabit və güclü praktiki mexanizmin şəkilləndirilməsi imkanları artmış olar və lazım gəldikdə isə ərzaq təhlükəsizliyi əlamətlərinin tələblərinə uyğun mövcud problemlərin həlli istiqamətlərinin formalaşdırılması imkanları artar.

Ərzaq təhlükəsizliyinin hüquqi baxımdan əsasını ölkənin konstitusiyası təsis edir ki,oda hər bir milli ölkəndaxili ərzaq suverenliyinə əsaslanır. Ölkənin ərzaq təhlükəsizliyi milli baxımdan ola biləcək hər hansı bir fövqəladə vəziyyət halında, dövlətin əhalisini müəəyən vaxtda qida , və ərzaq məhsulları ilə təmin edilmə imkanına,eyni zamanda hər kəsin ərzaq məhsullarını əldə etməsi üçün sosial, fiziki və iqtisadi imkanlara malik olması anlamındadır. Son illər ərzində əsasən bütün dünyada ərzaq təhlükəsizliyi ilə əlaqədar bir sıra yeni səslənmələr meydana gəlməkdədir. Kənd təsərrüfatı ilə ərzaq məmultaları ticarətinin qlobal xarakter daşıması bu məhsulların daha yaxın və rəqabətə davamlı olması, ölkəyə xarici valyuta axınlarının daha da artması kimi faydalar verir ki, qida mənşəli olan xəstəliklərin daha böyük miqyasda baş verə bilmə və yayılma ehtimalını da qaldırır. Bundan basqa, qida mənşəli xəstəliklərin mikrob əleyhinə preparatlara qarşı müqavimətinin güclənməsi, ərzaq təchizatında yeni müəyyən edilmiş mikroorqanizmlərin və kimyəvi tərkibli maddələrin təhlükə yarada bilməsi, eyni zamanda da dünya əhalisinin qidalanma vərdişlərinin dəyişdirilməsi kimi məsələlər özünü doğurur. Müasir zamsnda əhalinin ərzaq təhlükəsizliyini ilə təmin olunmasına əsasən 2 vəziyyətdə: Ərzaq bazarında məhsulların mövcud olması və onları əldə etmək üzrə maliyyə vəziyyətinə çıxışının olmasına. Ərzaq məhsullarının peyda olması idxal və istehsal münasibətlərindən asılıdrsa, maliyyə çıxışları adambaşına düşən aylıq gəlirlərin miqdarna görə dəyərləndiirlməlidir. Bu sadalanan amillərdən biri olmasza, ərzaq təhlükəsizliyi təmin edilmiş hesab edilmir. Təbii ki, bu halda əhalinin artımı həlledici şəkildə ərzağa olan tələbatının artım sürətini müəyyənləşdirir ki, digər tərəfdən də bu tələbat ilbə-il keyfiyyətcə inkisaf edir, dəyişir, genişlənri. Bu səbəbdən isə dünyanın çox sayda ölkələrndə kənd təsərrüfatı məmualatları istehsalı zamanı məhsuldarlığın artırılmasına nail olmaq məqsədilə sürəkli olaraq tədqiqatlar aparılır,müasir baxımdan texnologiyaların və yeni texnikaların kənd təsərrüfatı istehsalına tətbiq edilməsi, innovasiyaların istehsal sahələrinə cəzb edilmıəsi, gen mühəndislyi cəhətdən modifikasiya edilmiş mikro orqanizmlərdən, cürbəcür kimyəvi preparatlardan istifadə, qida əlavlərindən, əvəz edicilərdən və s. istifadə edilməsi müasir zamanda

geniş yayılıbdır. Təbii ki, buda istifadə olunan vasitələr istehsalın həcminin qaldırılmasında vacib rol oyanyır ki, bəzən düzgün istifadə olunmadıqda qida sağlamlığı baxımından müəyyən təhlükələrə gətirib çıxarır. Bundan əlavə olarzq, tələbatın artım surəti istehlak bazarında keyfiyyəti olmayan, insan sağlamlığına təhlükə yarada bilən ərzaq məhsullarının mövcudluğuna da mühüt yaradır. Ərzaq təhlükəsizliyinin təmin olunması insanın varlığını davam etdirməsi üçün ən mühüm amillərdəndir. Beləki, hər bir şəxs müəyyən keyfiyyətə sahib qida istehlak etməlidir, çünki ərzağın yoxluğu ölkə daxilində aclığa və ölümə səbəb olur.

Ərzaq təhlükəsizliyi anlayışı ilk dəfə Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (ƏKTT) tərəfindən müəyyən edilmişdir. Bu təşkilata görə ərzaq təhlükəsizliyi bütün şəxslərin həyatlarını sağlam və fəal şəkildə davam etdirməsi üçün vacib olan təhlükəsiz və keyfiyyətli ərzaqla təmin edilməsidir.Ərzaq təhlükəsizliyi riski ərzaqlarda insan sağlamlığına mənfi təsir göstərəcək maddələrin mövcud olmasına və, nəticədə, istehlak edilən ərzaqların insan sağlamlığına təhlükə törətməsinə əsaslanır.

Ərzaq istehsalçıları üçün ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər ərzağın istehsal qiymətini daha da qaldırır, istehsalçıların dünya bazarındakı reputasiyasına mənfi təsir göstərir, və nəticədə onların beynəlxalq bazara girişini çətinləşdirir .

Ərzaq təhlükəsizliyi ilə əlaqədar problemlərin aradan qaldırılması və alıcı rəğbətini qazanmaq üçün qanunverici orqanlar, istehsalçılar, və satışla məşğul olan müəssisələr bu məsələ ilə bağlı yeni qanunlar tərtib edir və ərzaq keyfiyyətini təmin edəcək yeni proqramlar həyata keçirir. Ərzaq təhlükəsizliyinin xüsusiyyətləri bir neçə yolla müəyyən edilir. Ərzaq təhlükəsizliyinin təmin olunmasındakı əsas məqsəd ərzaqla bağlı olan problemlərin aradan qaldırılması ilə elaqədardır, çünki bu kimi problemlər insanların sağlamlığına mənfi təsir göstərir .

Ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin müvəffəqiyyətlə həyata keçməsinə əngəl törədən ən vacib amillərdən biri, ölkələr beynəlxalq bazarda lazımı səviyyədə əməkdaşlıq etməməsidir .Qidanın keyfiyyəti ile bağlı xüsusiyyətlər alıcılar üçün ərzaq təhlükəsizliyinin ən əsas dəlilidir. Alıcıllara görə qıdanın keyfiyyətinə zəmin yaradan şərait onun istehsal prosesidir. Əgər istehsal prosesi

yüksək standardlara cavab vermirsə, bu qidanın keyfiyyətinə və təhlükəsizliyinə mənfi təsir göstərir. Günümüzdəki ərzaq sənayesində, belə alıcı rəftarına bir neçə hallarda rast gəlinib. Belçikada baş verən dioksin böhranı, alıcıların oqranik məhsullara olan tələbatını artırmış və nəticədə, beynəlxalq ərzaq bazarına mənfi təsir göstərmişdir. Beləki, isthesal edilmiş ət məhsullarının "Poliklorinli Bifenil" ilə çirklənməsi, bu ölkədə alıcıların istehsalçılara olan inamına mənfi təsir göstərmiş və alıcıların orqanik istehsala yönəlməsinə şərait yaratmışdır (Roosen J, 2003:s.77-78).

Almaniyada baş veren Nitrofen skandalı isə orqanik qidalarında qida təhlukəsizliyi riskinə məruz qaldığını sübuta yetirən hallardandır. Beləki, 2006-cı ildə, Almaniyada orqanik yumurta və hindüşqa ətində Nitrofen tapılmış, və ölkə daxilində böyük bir skandala səbəb olmuşdur. Bu hadisə orqanik kənd təsərrüfatı məhsullarınında ərzaq təhlükəsizliyi riskindən müdafiə olunmadığını və orqanik məhsullarında insan sağlamlığına zərər yetirmə potensialına sahib olduğunu açıq şəkildə göstərir. Lakin, bu kimi hallara baxmayaraq, alıcı nəzərində orqanik məhsullar daima sağlam və təhlükəsiz olmuşdur. Buna görə də, ölkədə baş verən hər hansı bir ərzaq təhlükəsizliyi skandalı orqanik məhsullara olan alıcı tələbatına az təsir edir .

Beynəlxalq bazarda ərzaq ticarətinin həcmi və vacibiyyəti, ərzaq təhlükəsizliyi ilə bağlı yeni ölçülərin götürülməsini və effeltiv proqramların həyata keçirilməsini zəruri edir. Global bazarda ən çox alınan və satılan ərzaqlarla bağlı risklər daima minimum olmuşdur, çünki insan sağlamlığına təhlükə törədəcək belə ərzaqlar həyata keçirilən ərzaq təhlükəsizliyi proqramları nəticəsində demək olarkı minimum səviyyəyə endirilmişdir . Belə tədbirlərin görülməsinə baxmayaraq, hələdə ən çox alınan və satılan ərzaq məhsullarında ərzaq təhlükəsizliyi riski mövcuddur.

Ərzaq təhlükəsizliyi ilə bağlı görülən tədbirlərə qarşı çıxan qruplar bu kimi tədbirlərin bazar iqtisadiyyatına mənfi təsir göstərdiyini və ticarət səmərəliliyini azaltdığını iddia edirlər. Beləki, ərzaq təhlükəsizliyini təmin etmək üçün görülən tədbirlər bu məhsulların beynəlxalq bazarda maneələrlə üzləşməsinə səbəb olur.

Hər hansı bir məhsulun xarici ölkənin ərzaq bazarına daxil olması üçün gömrüklərdə müəyyən olunmuş proseslərdən keçməsi, alıcının vaxtında və səmərəli şəkildə lazımı məhsulla təmin edilməsinə əngəl törədir və ərzaq qiymətinin qalxmasına şərait yaradır .(Wandolo M.A., 2016: s.1-3).

Ərzaq təhlükəsizliyinin beynəlxalq ticarətə maneə törətməsinə və məhsulun qiymətinə təsir göstərməsinə baxmayaraq, bu kimi tədbirlərin həyata keçirilməsi məcburiyyətdir. Yerli və beynəlxalq şirkətlər daha təhlükəsiz, sağlam və keyfiyyətli məhsulların istehsal etməli və ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin həyata keçirilməsində maraqlı olmalıdırlar. Şirkətlərin reputasiyası və satış səviyyəsi onların istehsal etdiyi məhsulun keyfiyyətindən və onun ərzaq təhlükəsizliyi standardlarına uyğun olmasından ciddi şəkildə asılıdır .

Daha keyfiyyətli və sağlam ərzaq istehsal edən müəssisələr daima alıcıların nəzərində güvənilən şirkətlər olmuş və alıcıların daima həmin şirkətlərdən məhsul almasına səbəb olmuşdur. Ərzaq təhlükəsizliyi ilə bağlı skandallarla əlaqələndirilən şirkətlər isə bazarda ciddi itkilərlə üzleşir, çünki alıcıların bu şirkətlərə olan inamı azalır və onların yerinə başqa şirkətlərin istehsal etdiyi alternativ məhsulların satışı artır .

Alimlər ərzaq təhlükəsizliyi risklərinin insan sağlamlığı risklərindən daha az olduğu qənəatindədir. Beləki, ərzaq təhlükəsizliyinin səbəb olduğu xəstəliklərlə müqayisədə xərçəng və ürək xəstəlikləri insanlarda daha çox rast gəlinən sağlamlıq problemləridir.

Ərzağın səbəb olduğu zərərlər və xəstəliklər arasında ən çox rast gəlinən hallar "Kampiblobakteriya" və "Salmonella" kimi pategenlərin səbəb olduğu xəstəliklərdir (Langsrud S.,Granum E.,2013: s.9). Ərzağın istehsalı prosesində düzgün tədbirlərin görülməməsi bu kimi patogenlərin istehlak edilən ərzaq vasitəsilə milyonlarla insanın ölümünə səbəb olması ilə nəticələnir. Buna görə də, insan sağlamlığı üçün təhlükəli olan ərzaqların lazımı tədbirlərin görülməsi vasitəsilə müəyyən edilməsi və beynəlxalq bazara olan çıxışının əngəllənməsi vacibdir.

Ərzaq təhlükəsizliyi insanın öz mənəvi və əqli keyfiyyətlərininin əsas amili olaraq, həm də başlıca hüquqlarından biridir. Bu cür təhlükəsizlik hər bir insanın

məhsuldar,sağlam həyat tərzi sürməsi üçün ərzaq ilə kifayət dərəcədə təmin olunması deməkdir. Belə problemin həlli üçün ilk başda yoxsulluğun azaldılması, ərzaq təminatı və ərzaq məhsullarından istifadəsindən mənfəətin artırılmasına hesablanıb. Ərzaq təhlükəsizliyi ölkənin azad siyasət yeritməsi və söz sahibi olaraq öz hüquqlarını tələb edə bilmısi, hər hansı problemin həlli zamanı vahid mövqe göstərməsi deməkdir.Ərzaq təhlükəsizliyinin təmin olunması üçün strateji məhsullar arasında əsas yeri taxıl özündə saxlayır.

Ərzaq təhlükəsizliyi bir baxımdan hər ölkənin milli ərzaq müstəqilliyinə əsaslanır. Dövlətin hər hansı siyasi suverenlyi hələ onun ərzaqla bağlı suverenliyinin təmin olunması demək deyildir. Bu o deməkdir ki, ölkənin milli suverenliyi ərzağa olan tələbata baş verə biləcək hadisədən hər hansı ekstremal şəaritlə bağlı fövqəladə vəziyyətlər zamanı dövlət xarici ölkəyə üz tutmayaraq əhalisini qida və ərzaq məhsulları ilə təmin etmək məqsədi daşııyır.Yaranmış tələbatı əsasən ölkənin ərzaq böhranı yaşamasına imkan verməyərək, xüsusi mənbələri hesabına ödəmək qabiliyytəində olmalıdır .

Müasir beynəlxalq bazarın mövcud olduğu mühitdə, ərzağın səbəb olduğu təhlükələrin həcmi və dərəcəsi keçmişə nisbətdə daha böyükdür. Beynəlxalq bazarın az inkişaf etdiyi keçmiş dövrdə, ərzağın səbəb olduğu sağlamlıq problemləri ölkə daxilindəki ictimai sağlamlıq səviyyəsinə mənfi təsir göstərir və həmin ölkə sərhədi daxilindəki insanlara olan təsiri ilə məhdudlaşırdı.Lakin, müasir qlobal bazarda, ərzağın səbəb olduğu sağlamlıq problemləri hər hansı bir ərazi ilə məhdudlaşmır və kütləvi şəkildə insanların sağlamlığına mənfi təsir göstərir .İstehsal edilən hər hansı məhsul ümumi beynəlxalq bazarda satıldığı zaman, həmən məhsulun təsir edici gücü ölkənin sərhəddini keçir və daha çox insalara həyat təhlükəsi törədə bilir. Bundan ziyadə, ərzağın səbəb ola bildiyi xəstəliklər keçmişdə daha artıq yüksək dərəcədə çirklənmənin səbəbi ilə baş verirdi ki, günümüz dövründə də, ərzaq istehsalının, paylanması və ümumi ticarətin təkmilləşməsi səbəbilə, çirklənmənin səbəb ola bildiyi ərzaq problemləri minimuma düşmüşdür.Qlobal olan ərzaq problemi və ya ərzaq təhlükəsizliyi haqqında, başlıca sənayeləşmə dövründən sonra, elmin inkişafı və texnologiya

nəticəsində artıq uzun illərdir ki, dünyada ərzaq istehsalı daha yüksək səviyyədə müqavimət göstərməkdədir. Təsərrüfat sisteminin fəaliyyətinin vacib tərkib hissəsi olmaqla yanaşı, dünya ərzaq sisteminin, onun istehsalının, mübadiləsi, bölgüsü və istehlakı dünya insanların qida ilə təmin olunması isə kənd tesərrüfatının inkişafından daha çox asılı olur. Ümumilikdə, kənd təsərrüfatının təkmilləşdirilməsinə nəzarətin artırılmasına maraq gətirilməyə çalışılır.Qlobal ərzaq problemi cəmiyyətin bir çox iqtisadi və sosial baxımdan problemləri ilə bağlı olur. Burada istehsalın istiqaməti və hərəkəti, gəlirlərin yülsək dinamikası ve paylanması, şəhərləşmə və sənayeləşmədir. Bu prosesdə, şəhərin real tələbatından daha çox kəndlərdən axını zamanı ve digər amilləri də qeyd etmək lazımdır. Ərzaq probleminə bu baxımdan sosial-iqtisadi mühitə malik ola bilməsi onu göstərir ki, ərzaq problemi daim kənd təsərrüfatı istehsalına görə nisbətən daha böyük məna kəsb edir.

Araşdırmalar onu göstərir ki, iqtisadiyyatın başqa sahələrində müxtəlif olaraq aqrar sahənin inkişafı təbii şəraitdə asılı olduğu üçün bu sahədə məhsuldar qüvvələrin daha da formalaşdırılmasında çətinliklər də törədə bilir. Məhsuldar qüvvələrin aqrar sektorda inkişaf göstəricisi iqtisadiyyatın başqa sahələrindən fərqli olaraq zəif inkişafda qalır. Digər tərəfdən isə sahibkarlığın madi-texniki təchizatlara, suvarma suyuna, infrastruktur maddələrinə, məhsulların satışına, emalına, yeni məhsul növlərinin toxumuna, mövcud texnologiyaların tətbiq edilməsinə, təşkilati olan işlərə, idarəetmənin tərkibi strukturunun bazar münasibətlərinin formlalaşması istəkləri əsasında yenidən qurulmasına, cins mal - qaralara, lazımi kadr potensialının hazırlığına gətirib çıxarılmasına əsasasən yenidən qurulma nəticəsi olaraq aqrar sahədə maliyyə problemləri meydana çıxır ki, bu da eyni zamanda nəticə etibarı ilə maliyyədən asılı hala gətirib çıxarır ki, dünya ölkələri içində iqtisadi beynəlxalq əlaqələrin intensiv şəkildə böyüməsi dövlətlərarası əmtəə məhsullarının sərbəst fəaliyyətinə, mübadiləsinə və həyat keçməsinə mühit yaradırki, beynəlxalq bazarda məhsulların, azad ticarət və alqı - satqının daha da genişlənməsinə, informasiyaların bolluğuna səbəb olur. Ölkənin ərzaq təhlükəsizliyi problemi daha çox daxili və xarici mənbədən əmələ gələn

səbəblərin təsiri nəticəsində yaranır. Daxili və xarici mənbədən əmələ gələn belə təsirlər ölkənin ərzaq sistemində gedişatlara gətirib çıxarır və dövlət paralel şəkildə sosial qeyri - stabillik halını yaşayır. Aqrar iqtisadiyyatda, həmçinin ölkənin milli ərzaq təhlükəsizliyinə ciddi şəkildə təsir göstərə bilən zərərli daxili faktorlar daha mənfi təsirə malik olur.

Ölkənin ərzaq təhlükəsizliyinin yetərli təmin olunması vacib baxımdan dövlət qarşısında duran ciddi problem kimi görülərək ən vacib məsələlərdən biridir. Görülən problemi dövlət xarici və daxili təhlükələri aradan götürərək həlledir. Müxtəlif qaynaqlarda ərzaq təhlükəsi problemi müxtəlif variantlarda təklif edilir. Beləki, ərzaq təhlükəsi yaradan gətirən kimi başlıca olaraq ərzaq məhsullarının istehsalı miqdarında olan həcminin aşağı düşməsi, ərzaq məhsullarının idxaldakı həcminin qaldırılması düşünülərək, aqrar sənaye kompleksinin istehsal gücünün aşağı düşməsinə görə bu səviyyə, o cümlədən strateji sifarişlər, sığorta və operativ ehtiyatlarının çatışmazlığı göstərilib. Ərzaq təhlükəsini yaranmasında problem yarada bilən daxildəki situasiyalar sırasına təbii fəlakətlərin (daşqınlar, quraqlıq və s.) o cümlədən cəmiyyətdə bir sıra təbəqələşmə halları artaraq və aztəminatlı əhalinin payının dərinləşməsi, kənd təsərrüfatında ASK-nın başqa sahələrində genişlənmiş təkrar istehsalın səviyyəsinin minim səviyyəydə aşağı düşməsi hallarında (və yaxud tamamilə mövcud olmaması) xarici təsirlərə isə ölkənin iri şəhərlərin sənaye mərkəzlərinin onun ayrı-ayrı regionlarında mövcud halda idxal olunan ərzaq məhsullarından asılılığını aid edir. Dövlətin əsas məqsədi burada təhlükələri aşağı səviyyəyə düşürməkdir. Müəyyən bir qrup üzrə dövlətin tədbirlər sistemi vardır ki, onların dəstəyi ilə qidaya bağlı problemləri aradan qaldrmaq bu və ya digər səviyyədə həll etmək mümkündür. Bütövlükdə adambaşınadüşən istehsalın həcminin mümkün olmayan halda prizma şəklində deyildə, ASK–da böhran vəziyyəti nöqteyi - nəzərindən baxılmağa ehtiyacı var. Ölkəndə ərzaq təhlükəsizliyinin başlıca şərti özü-özünü təmin etməkdir. Özünü təminetmə qavrayışı ərzaq məhsullarına olan tələbatın ölkə daxili istehsalı hesabına ödənilməsi kimi anlaşılır.

Ərzaq təhlükəsizliyinin mahiyyəti insanın varlığının əsas göstəricisidir. Bu baxımdan,ərzağın mövcud olmaması aclıq və ölümün mənasını da qoyur. İnsanlar üçün gündəlik müxtəlif mənşəlı və yüksək keyfiyyətli qidalarım qəbulu mühümdür. Əhalinin qidalanma vəziyyətindəki göstərici ölkənin bütövlükdə iqtisadi inkişafının göstəricisini xarakterizə edir ki , yəni qida v məhsullarının istehsalı prosesi istənilən istehsal çeşidinin başlıca şərti olub hər zaman mövcud olmuşdur. Əhalinin qida ilə təminatı sosial baxımdan da iqtisadi strukturun təhlil edilməsi həyat qabilyyətliliyinin səviyyəsinin artırılımasının mühüm faktoru və müəyyən edici kriteriyasıdır. Ərzaq təhlükəsizliyi iqtisadiyyatın o vəziyyətində özünü tapır ki, mövcud imkanlar daxilində əhalinin daha fəal və sağlam həyat tərzi yaşaması üçün zəruri miqdarda ərzaq məhsullarına olan daxili tələbatını təmin edilməsi mümkün ola bilsin. Ərzaq təhlükəsizliyi hər hansı fərdin ərzaq istehlakı tələbatı səviyyəsindən bilavasitə asılı olaraq həm makro, eyni zamanda damikro baxımdan, həm də dünyəvi xarakter daşıyır. Ərzaq təhlükəsizliyinin mikro yanaşmadan spesifikasıyası  hər bir şəxsin yaşamaq istəyi imkanlarınln olması ilə xarakterizə edilir. Makro spesifikasıya deyərkən isə ölkənin ümumilikdə inkişaf səviyyəsi sistemi, qlobal spesifikasıya baxımından isə dünyada bas verən qlobal geosiyasi və beynəlxalq münasibətlərdə olan dəyişikliklərlə birbaşa bağlıdır. Ümumilikdə, ərzaq  təhlükəsizliyi bir tərəfdən müvəqqəti, eyni zamanda xroniki dövr olaraq özünün ciddi mənada kəskin dövrünü yaşayır. Ərzaq təhlükəsizliyinin dövri olaraq səciyyəvi xarakter daşıması adətən təkmilləşərək inkişaf da olan ölkələr üçün vacib hallardan biri hesab edilir. Bu sistemdə gedən proses həmçinin bu ölkələrdə iqtisadi tərəqqi səviyyəsinin aşağı düşməsi və eyni zamanda maliyyə imkanlarının məhdud olması, kənd təsərrüfatında,onunla bağlı başqa sahələrdə  də intensiv texnologiyaların tətbiq edilməsinin də aşağı səviyyəyə düşməsi, əhalinin alıcılıq bacarığının yerli ərzağa olan tələbatının rəqabətə davamlılıq keyfiyyətinin aşağı,həddə-olmasıdır.

Qlobal dünyada beynəlxalq baxımdan ərzaq təhlükəsizliyi sistemi, bir baxımdan qida çatışmamazlığıdan çox əziyyət görən ölkələrə yardım göstərilməsini təmin etmək və inkişaf etmək üzrə olan ölkələrə özünün milli qida

təhlükəsizliyi sisteminin yaradılmasına yardımçı olaraq təşkilati,texniki və iqtisadi yardımlar edilməsini özündə əksini tspır. Bu sistemdə vacib tərkib hissəsi olan təbii ki taxıl ehtiyatları balansının yaradılması mümkün dərəcədə ərzaq çatışmamaızlığının aradan qaldırılmaısı məqsədi daşımaqla yanaşı, eyni zamanda da yerli daxili bazarlarda taxıl məhsullarının dəyərinin stabil saxlanılması üçün vacib əlaqə rolunu da oynayır. Bu zaman tələb və təklifin balansından asılı olaraq taxıla olan tələbat formalaşaraq konyuktur dalğalanmaları nəzərdə saxlanılmaqla beynəlxalq bazar qiymətlərinin formalaşması əsas götürülərək və onun səviyyəsinə mərəhələ baxımından yenidən baxılır. Bu tərəfdən baxdıqda qiymətlərin aşağı səviyyəyə düşməsi bazarda ehtiyatların bir araya gətirilməsi mexanizmini, qiymətlərin yüksək dərəcə səviyyəsinə qalxması isə ehtiyatlardan intensiv olarasq istifadənin indikatoru funksiyasını da həyta keçirir. Deməli, beynəlxalq bazarda ümumilikdə ərzaq ehtiyatının formalaşması hesabına ərzaq bazarının stabilləşdirilməsi həm ixracıçılar, həm də idxalçılar baxımından iqtisadi cəhətdən görüldükdə sərfəli ola bilər. Aqro-ərzaq sistemi də iqtisadiyyatda bunlardan biri şəklində çıxış edir ki, bura 2 alt sistem daxil edilir: əsaslı şəkildə aqrar sahədə kənd təsərrüfatı məhsullarının istehsal olunması ( kənd təsərrüfatı ) və sənaye baxımından emalı prosesi ( emal qida sənayıesi).Öz fəaliyyət sferasında o digər alt sistemlərlə (energetika, maşınqyırma , kimya ,maliyyə , nəqliyyat ) inteqrasiya üsuluyla onların hissələrinin (məhsullar və xidmətlərin ) bir elementi kimi çıxış edir.

Aqro-ərzaq iqtisadiyyatı sisteminin əsas məqsədi odur ki bir sıra əhalinin, onun kəmiyyətinə, keyfiyyətinə və strukturu baxımından görülə bilən müxtəlif alt qruplarının tələbatına müvafiq qayda da təbii ərzaq məhsıulları ilə təmin olunmasıdır. İqtisadiyyatın izah olunması ilə əlaqəli olaraq bu görülən sistemdə proses yeni bir bazar münasibətlərinin formlaşması vasitəsi əsasında formalaşdırılır. Bununla əlaqədar, həyata keçirilən birt sıra görülən tədbirlər sisteminin aqro-ərzaq sisteminin iqtisadiyyatının optimal həcmdə strukturunun inkişafını təşkil edir. Real mühitdə sistemin bir hissəsi kimi aqro-ərzaq sistemi iqtisadiyyatının struktur həcminin gücləndirilməsi üzrə alınan qərarlar qəbul edən

bir sıra fərdi şəxslərlə bazar subyektləri arasında peyda olan bütün münasibətləri diqqətlə izləyib və həyata keçirmək potensialında deyildirlər. Bu baxımdan idarə edicilərin ciddi şəkildə sayını artırmaq lazımdır ki, bu da rasional ifadə deyildir, ya da subyektlər arasında idarə edilən münasibətlərin sayını azaltmaq mümkündür olar ki , bu isə nəticə etibarı ilə idarə edilən sistemin xaosa çevrilməsinə gətirib çıxara bilər ( məhz liberal iqtisadiyyat ). Buna görə də optimallaşdırma prosesi zamanı bir tərəfdən bazar qanunlarının daha müsbət təsiri təmin olunmalı, digər tərəfdən isə onun inkişafına neqativ hallara yol aça biləcək faktorların ümumi təsirini minimum dərəcədə aşağı endirə biləcək proseslərlə münasibətlər seçilib tənzimlənməlidir. Ərzaq təklifinin məqsədə uyğun formada həyata keçirilməsi bazar infrastrukturası vasitəsilə birbaşa uyğun gələn tələblə qarşılaşması bilavasitə ölkə əhalisinin hər bir vətəndaşının istənilən zaman arzuladıqları ərzaqla təmin olunma imkanına çıxışına malik olmalıdır.Bu zaman həmin ictimai ehtiyatlar aztəminatlı vətəndaşlara bilavasitə istiqamətləndirilir, həmdə bir tərəfdən ödəmə qabiliyyətində olan əhalinin istədikləri tələbatın formalaşdırılması vasitəsinə yönəldilir. Dövlət siyasətinin ən əsas məqsədlərindən biri kimi ərzaq təminatının formalaşdırırlması istiqamətlərindən biri kimi əhalinin nəinki keyfiyyətcə , həm də kəmiyyətcə müasir tələbatlara cavab verə bilən, ekoloji təmiz məhsullarla tədarük edilməlidir. Bu səbəblə də, keyfiyyətcə və təhlükəsizcə intensiv nəzarət sistemi quraşdırlmalıdır.

Nəzərdən keçirilmişdir ki, ərzaq təhlükəsizliyinin təminatı institusional sisteminin təkmilləşdirilməsi üçün inkişafı diqqət mərkəzində nəzərdə saxlanılacaq, aqrar sahənin kadr və elmi potensialı möhkəmləndiriləcək, sahibkarılığın inkişafı üçün modellərdən qabaqcıl şəkildə tətbiqi və dövlət tərəfindən maliyyə baxımından dəstəyi genişləndirıilməlidir.

Ərzaq təhlükəsizliyi riskinin bir neçə forması mövcuddur. İlkin forması istehsal edilən müəssisə və yaxud şəxs tərəfindən ərzağa “məqsədli” şəkildə zərərli maddələrin qatılması ilə nəticələnən zərərli məhsullardır hansıki “bioterrorism” adlanır. Ərzaq təhlükəsizliyi riskinin digər forması isə qidanın keyfiyyəti və onun komponentləri barədə saxta məlumatın verilməsidir. Burda da, müəssisə məqsədli

şəkildə qida saxtakarlığı ilə məşğul olur, lakin istehsalat prosesində zərərli maddələrdən istifadə edilmir. Baxmayaraqkı ilkin formada istehsal olunmuş ərzaq insan sağlamlığına zərər vurur, bu formada sadəcə alıcılar qidanın keyfiyyəti və tərkibi ilə bağlı məqsədli şəkildə yanlış məlumatlandırırlar. Burda məqsəd ərzağın satış səviyyəsini qaldırmaq və gəliri artırmaqdır . İctimai və özəl sektor hər ikisi qida təhlükəsizliyinin təmin olunmasını və onun müvəffəqiyyətlə həyata keçirilməsini təmin etməkdə maraqlıdır . Daxili və xarici özəl sektor ərzaq təhlükəsizliyinin təmin edilməsində və potensial risklərin aradan qaldırılmasında daima iştirak edirlər. Burda əsas məqsəd ərzaq təhlükəsizliyi ilə bağlı hər hansı bir skandalın şirkətin bazardakı reputasiyasına və mövqeyinə təsir gücünü aradan qaldırmaq və ya azaltmaqdır. Xüsusilə, alıcıların ərzaq təhlükəsizliyinə diqqət yetirdiyi və qiymət verdiyi bir dövrdə, sağlam və təhlükəsiz məhsulların istehsalı böyük önəm kəsb edir.

Alıcıları məmnun etmək və onların tələblərinə cavab vermək məqsədilə, şirkətlər özləri üçün ərzaq təhlükəsizliyini təmin edəcək müəyyən standardlar qəbul edir və bunları həyata keçirirlər . Alıcılar tərəfindən sağlam və təhlükəsiz kimi qəbul edilmiş şirkətlər, bazarda daha çox satış edir və daha çox gəlir edir.

### 1.2 Ölkənin ərzaq təhlükəsizliyinin səviyyəsini müəyyənləşdirmək üçün istifadə edilən metodika və metodologiya

Ölkənin ərzaq təhlükəsizliyi səviyyəsi müəyyən edilmiş sistemlər əsasında analiz edilir və təmin edilir. Bu sistem ərzaq məhsullarının səbəb ola biləcəyi təhlükələri analiz edir və ölkə daxilindəki ərzaq təhlükəsizliyi səviyyəsini müəyyən edir. Bu metod sistematik şəkildə qidanın səbəb ola biləcəyi təhlükələri analiz edir, araşdırır və dəyərləndirir.

"Təhlükə Analizi" modelinin 7 əsas prinsipi vardır:

- Təhlükə analizini həyata keçirmək
- Müəyyən edilmiş təhlükənin aradan qaldırılması üçün lazımı nəzarəti və tədbiri müəyyən etmək

- İstehsal prosesindəki təhlükənin aradan qaldırılması üçün lazımı tədbirin müəyyənləşdirmək
- Effektiv nəzarət prosedurlarını yaratmaq
- Yaranmış təhlükənin aradan qaldırılması üçün lazımı tədbirləri aydınlaşdırmaq
- Təhlükə analizinin düzgün və məqsədəuyğun həyata keçirilməsi üçün nəzarət və yoxlama prosedurlarını müəyyən etmək
- Əldə edilmiş məlumatların saxlanması və qoruması üçün lazımı prosedurları müəyyən etmək

"Təhlükə analizi" modelinin ilkin mərhələsində əsas məqsəd bütün mümkün ola biləcək problemləri aydınlaşdırmaqdır. Bu mərhələdə alıcının sağlamlığı üçün təhlükə törədəcək maddələr müəyyən edilir . Bu modelin növbəti mərhələsi isə yaranmış təhlükənin aradan qaldırılması üçün lazımı tədbirlərin görülməsidir. Ərzaq təhlukəsizliyi riskinin meydana çıxdığı mərhələ həmin tədbirlərin həyata keçirilməsi üçün ən müvafiq nöqtədir. Digər mərhələdə isə maksimum və minimum səviyyələrin müəyyən edilməsi mərhələsidir. Beləki təhlükənin aradan qaldırılması üçün lazım olan tədbirlərin səviyyəsinin müəyyən edilməsi o problemlərin aradan qaldırılması üçün görülən tədbirlərin ən əsas komponentidir. Daha sonrakı mərhələ isə kontrol prosedurlarının yaradılması və istehsal prosesinə nəzarətin gücləndirilməsi ilə əlaqəlidir. Bu mərhələdə əsas məqsəd istehsal prosesində ərzaq təhükəsizliyinə mənfi təsir göstərən amillərin aradan qaldırılmasını təmin etmək və bu prosesə nəzarət etməkdən ibarətdir (Keener K., 2003: s.6 -7).

Ərzaq təhlükəsizliyi riskinin aradan qaldırılmasını təmin etmək üçün lazımı metodların, prosedurların, testlərin, və dəyərləndirmə metodlarının müəyyən edilməsi və onların effektivliyinin tədiq edilməsi, bu modelin növbəti mərhələsidir. Bu mərhələdə, görülən tədbirlərin ərzaq təhlükəsizliyi standardlarına uyğun olması analiz edilir.

Bu modelin sonuncu mərhələsi isə toplanmış məlumatların saxlanılması və gələcəkdə yenidən istifadəsi üçün hazır olmasıdır. İngiltərədə, Şotlandiyada, və Şimali İrlandiyada, ərzaq biznesinə nəzarət ve bu sahədə ərzaq təhlükəsizliyinin

təmin edilməsi birbaşa Ərzaq Standartları Agentiliyi tərəfindən həyata keçirilir. Ərzaq istehsalı ilə məşğul olan müəssisələrə nəzarət etmək və ordakı ərzaq təhlükəsizliyinin səviyyəsini müəyyən etmək üçün bu agentlik özünün xüsusi metodunu yaratmışdır (Knox R.B., Kane K., Neighbour S., 2016: s. 15-16).

Bu metod vasitəsilə, Ərzaq Standartları Agentliyinin aşağıdakı elementləri analiz edərək, müəssisənin ərzaq təhlükəsizliyi səviyyəsini müəyyən edir:

- Ərzaq gigiyena və təhlükəsizlik prosedurları (müəssisə daxilində istehsal prosesinə və temperatura nəzarət etmək)
- Müəssisənin strukturu (təmizlik, işıqlandırma, ləvazimatların keyfiyyəti və təmizliyi kimi faktorları nəzərə almaq)
- Müəssisə daxilindəki ərzaq təhlükəsizliyi sisteminin effektivliyi (müəssisələrdə ərzaqla bağlı təhlükələrin aydınlaşdırılması, analiz edilməsi, və həll edilməsi bacarığını analiz etmək)
- İşçi qüvvəsinin ərzaq təhlükəsizliyi və onun həyata keçirilməsi haqqındakı mövcud biliyi və bacarığı

Ərzaq istehsalı ilə məşğul olan müəssisələr Ərzaq Standartları Agentliyinin analizi zamanı ölkə daxilindəki standartlara yetərincə cavab vermədikdə, daimi olaraq bu agentlik tərəfindən analiz edilir və müxtəlik yollar vasitəsilə yüksək ərzaq təhlükəsizliyi standartlarının həyata keçirilməsi haqqında xəbərdalıq edilirlər.

Bundan əlavə, Ərzaq Standartları Agentliyinin (ƏST) həyata keçirdiyi digər bir ərzaq təhlükəsizliyi proqramı isə Qida Gigiyenası Qiymətləndirmə Sxemidir, hansıkı ərzaq məhsulları istehsal edən şirkətlərin gigiyena standartlarına uyğun istehsalla məşğul olmasına nəzarət edir və onlarda ərzaq təhlükəsizliyi səviyyəsini müəyyən edir. Bu sistemin əsas məqsədi alıcıları müasir gigiyena standartları barəsində məlumatlandırmaq və onlar üçün sağlam və keyfiyyətli istehsalla məşğul olan müəssisələri müəyyən etməkdir. Qida Gigiyenası Qiymətləndirmə Sxemi aşağıdakı komponentlərə əsasən ərzaq təhlükəsizliyi səviyyəsini müəyyən edir və alıcıları gigiyena tələblərinə uyğun istehsalla məşğul olan müəssisələr barədə məlumatlandırır:

- Gigiyenik tələblərə uyğun istehsal prosesi (ərzağın hazırlanması, saxlanılması, yenidən isidilməsi prosesi)
- İstehsal prosesində istifadə edilən avadanlıqların təmizliyi və vəziyyəti
- Ərzaq təhlükəsizliyi standartlarının həyata keçirilməsi (müəssisə daxilindəki ərzaq təhlükəsizliyini təmin edən sistemin və yaxudda yoxlanışların mövcud olması)
- Müəssisənin milli ərzaq təhlükəsizliyi standartlarına cavab verməsi (FSA, 2014).

Kanada Ərzaq Yoxlama Agentliyi də özünün xüsusi ərzaq təhlükəsizliyini analiz etmə metodunu yaratmışdır, hansıki Sağlamlıq Riskinin Qiymətləndirilməsi Modeli adlanır. Bu model ərzaq istehsal edən şirkətlərə ərzaq təhlükəsizliyi səviyyəsini analiz etmək imkan verir. Bu model ərzaq təhlükəsizliyi risklərini müəyyən edərək, ölkə daxilindəki tədbirlərin effektivliyini analiz edir və müəyyənləşdirir.

Aşağıdakı komponentlər isə Sağlamlıq Riskinin Qiymətləndirilməsi modelinin əsas mərhələləridir:

- Problemin müəyyən edilməsi
- Həmin problemin ərzaq təhlükəsizliyinə olan təsirinin müəyyən edilməsi
- Təhlükənin aydınlaşdırılması
- Problemin səbəb ola biləcəyi nəticələrin aydınlaşdırılması
- Mövcud ərzaq təhlükəsizliyi sisteminin bu təhlükənin aradan qaldırmaq potensialının dəyərləndirilməsi
- Mövcud sistemin dəyərləndirildikdən sonra həmin təhlükənin səbəb ola biləcəyi problemlərin analiz edilməsi
- Ərzaq təhlükəsizliyi riskinin dərəcəsinin müəyyən edilməsi (aşağı, vacib, kritik səviyyə) (CFİA, "Risk Analysis",2006).

### 1.3 Ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlətin iqtisadi siyasətinin mühüm istiqaməti kimi

Ərzaq təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının beynəlxalq bazardakı rolunun və fəaliyyətinin artmasına şərait yaradacaq və

ölkənin istehsal həcminə müsbət mənada təsir edəcəkdir. Günümüzdə, ərzaq təhlükəsizliyinin təmin olunması və inkişaf etdirilməsi, dövlətin ən əsas prioritet hədəflərindən biri kimi öz əksini tapır. Qeyd olunmalıdır ki, ancaq göstəricilər üzərində kənd təsərrüfatında istehsalın miqdarını müəyyən edən səbəblər arasında əsas ehtiyatların kifayət qədər ödənilə bilməməsi, ərzaq, emal sənayesi və kənd təsərrüfatını material-texniki təchizstlarla təmin edən istehsal bölmələrinin qismın və ya bütövlükdə məhdudlaşdırılması və torpağın münbitliyinin aşağı düşməsi, toxumçuluq sisteminin tamamilə aşağı düşməsi və s. nümunə göstərmək olar. İxtiyari bir ölkənin kənd təsərrüfatı məhsullarının istehsalı zamanı səviyyəsi isthsal faktorunun və dövlət tərəfindən idarə edilən ərzaq təhlküəsizliyin təmin olunması imkanlarının səbəbi olaraq görülür. Azərbaycanın rayonlarında kəndli ailə və fermer təsərrüfatlarıının , kiçik orta sahibkarlıq subyektlərinin inkişafının təkmilləşdirilməsi və modelləşdirilməsi üçün dövlət tərəfindən edilən güzəştli vergilər tətbiq edilmiş,kənd təsərrüfatı istehsalçılarına məhsul üzrə subsidyaların verilməsi mexanizmləri dövriyyəyə qoyulmuş,kənd təsərrüfatı gübrələri və texnikanın kənd təsərrüfatına təminatına yönləndirilmələri üzrə praktiki fəaliyyət təchizatları hazırlanmış və indi də də həyata keçirilir.

Azərbaycan Respublikasında, ərzaq təhlükəsizliyi riskinin azaldılması və daxildə istehsal edilən məhsulların keyfiyyət və həcminin artırılması üçün aşağıdakı planların həyata keçirilməsi nəzərdə tutulur:

- Ərzaq istehsalı prosesinin biotexnologiya ilə təmin edilməsi
- Ölkə daxilindəki ərzaq istehsalı prosesində nanotexnologiyalardan istifadənin artırılması
- Yeni ərzaq növlərinin yaradılması və mövcud qida növlərinin inkişaf etdirilməsi
- Orqanik qida istehsalının artırılması və inkişaf etdirilməsi
- İstehsal prosesində yaranan itki və tullantılarının həcminin azaldılması
- İtki və tullantıların yenidən emal imkanlarının artırılması

Beynəlxalq Ərzaq Təhlükəsizliyin verilən İndeksinə görə Azərbaycan Respublikası 2017 - ci ildə ərzaq məhsullarının keyfiyyət göstəricisinə görə 86-ci

yeri və ölkənin ərzaq istehsalı həcminə görə isə 61-ci yeri tutmuşdur ("Strateji Yol Xeritesi ",2017:s.49).

2050-ci ilədək kənd təsərrüfatı məhsullarına olan tələbatın 70% artacağı proqnozlaşdırılır.Buna səbəb isə dünya əhalisinin sayının artma tempi və münbit torpaqlarının həcminin deqredasiyaya görə azalması olacaqdır . Buna görə də beynəlxalq bazarda kənd təsərrüfatı məhsullarına olan tələbatın artması gözləniləndir. Lazımı tədbirlərin görülməməsi halında, ərzaq məhsullarına olan tələbatın artması, ərzaq təhlükəsizliyi ilə əlaqəli daha çox potensial problemlərin yaranması və ərzaq çatışması, xüsusilə zəif inkişaf etmiş ölkələrdə müşahidə edilir.

Respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunması və potensial risklərin aradan qaldırılması ən mühüm strateji hədəflərdən biridir. Ölkə daxilində ərzaq təhlükəsizliyinin gücləndirilməsi və daxili bazarın lazımı həcmdə və keyfiyyətdə ərzaqla təmin edilməsi üçün aşağıdakı strateji hədəflər nəzərə tutulmuşdur.

- Ərzaq təhlükəsizliyinin təmini üçün informasiya və nəzarət sisteminin yaradılması
- Region və məhsul üzrə ərzaq təhlükəsizliyinin təmini üçün lazımı mexanizmanın yaradılması
- Ölkədə ümumi ərzaq təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi

Hazırda ölkə daxilində ərzaq təhlükəsizliyi ilə əlaqədar məlumat bazaları ayrı ayrı dövlət qürumlarında və müxtəlif təşkilatlarda mövcuddur. Misal üçün Azərbaycan Respublıkası Dövlət Statıstıka Komitəsin də ərzaq məhsullarının istehsal prosesi, bazar qiyməti, və tələb səviyyəsi ilə bağlı məlumatlar vardır . Bundan əlavə, ölkə daxilindəki hava şəraiti, torpaq, su və digər təbii resursların şəraiti ilə bağlı məlumat Ekologiya və Təbii Sərvətlər Naziriliyinin məlumat bazasında mövcuddur ("Strateji Yol Xəritəsi", 2016:. s.51-52).

Beləki, ölkə daxilində fəaliyyət göstərən müxtəlif dövlət qürumları və özəl müəssisələrdə ərzaq təhlükəsizliyi ilə bağlı kifayət qədər məlumat mövcuddur.. Azərbaycanda fərqli dövlət qürumlarda mövcud olan ərzaq təhlükəsizliyi ilə əlaqədar məlumatların toplanmasına və vahid məlumat sisteminə əlavə edilməsinə

ciddi ehtiyac vardır. Buna görə də əsas strateji hədəflərdən biri Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi ilə bağlı xüsusi informasiya və nəzarət sisteminin yaradılmasıdır.

Bundan əlavə, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün Ərzaq Təhlükəsizliyi Komissiyasinin yaradılması əsas strateji hədəflərdən biridir. Yaradılması planlaşdırılan Ərzaq Təhlükəsizliyi Komissiyasının əsas məsuliyyəti ölkədə ərzaq təhlükəsizliyi ilə bağlı fəaliyyətlərin koordinasiyasını və qiymətləndirilməsini təmin etməkdən və bu sahə ilə bağlı müxtəlif layihələrin hazırlanmasına və həyata keçirilməsinə nəzarat etməkdən ibarət olacaqdır.

Azərbaycan Respublikasında bütün əhalinin keyfiyyətli və təhlükəsiz ərzaq məhsulları ilə təmin olunması üçün xüsusi mexanizmin formalaşdırılmasıda əsas strateji hədəflərdəndir. Bundan əlavə fövqəladə vəziyyət zamanı əhalinin lazımı ərzaq məhsulları ilə təmin olunmasi üçün ölkə potensialının genişləndirilməsidə əsas strateji məqsədlərdən biridir. Fövqəladə halların baş verə biləcəyi bölgələrdə ərzaq təhlükəsizliyini təmin etmək üçün aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulur:

- Regionlarda fövqəladə hallarla bağlı risk analizini həyata keçirmək
- Fövqəladə halların baş verə biləcəyi potensial regionları müəyyənləşdirmək
- Riskli regionlarda ərzağa olan tələbatı hesablamaq
- Lazımı ərzaq ehtiyatını yaratmaq

Azərbaycanın 2020-ci ilə qədər nəzərdə tutulan tərəqqi istiqamətində də ərzaq təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət ayrılmışdır. 2020-ci ilədək ölkə daxilində ərzaq təhlükəsizliyini inkişaf etdirmək məqsədilə kənd təsərrüfatına xüsusi diqqət ayrılacaqdıq. Bundan əlavə, 2020-ci ilə qədər ərzaq məhsulları istehsal edən müəssisələrin müasir texnologiyalar vasitəsilə istehsal potensialını artırmaq, yeni belə müəssisələr yaratmaq, kənd təsərrüfatı məhsullarının istehsalına xüsusi diqqət ayırmaq, və kənd təsərrüfatı məhsullarının keyfiyyətini təmin etmək məqsədilə dövlət dəstəyi ayırmaqda əsas hədəflərdəndir ("Gələcəyə Baxış İnkişaf Konsepsiyası ",2012: s.11).

# II Fəsil ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASININ MÜASİR VƏZİYYƏTİ

## 2.1 Dünya ərzaq bazarının müasir vəziyyəti

Müasir və rəqabətə əsaslanan bazar iqtisadiyyatında ən mühüm problemlərdən biri mövcud əhalinin ərzaqla təminatıdır. İnsanların ərzaq məhsullarına olan tələbatını yüksək keyfiyyətə sahib olan və sağlam qidalarla təmin etmək müasir dövrün ən vacib tələblərindən biridir. Baxmayaraq ki, 1990 və 2002-ci illər arasındakı vaxt müddətində aclıqdan əziyyət çəkən əhalinin sayı 18.6 faizdən 12.5 faizə düşmüşdür, bu göstərici hələ də kifayət qədər yüksəkdir (Abasov, İ.D, 2013: s.1).

Kənd təsərrüfatı sahələrinin daim təkmilləşdirilməsi üzrə dövlət siyasətinin elementləri və yanaşmaları baxımından içərisində sosial pronlemlər və məsələlər, eyni zamanda ətraf mühitin müdafiəsi üzrə nəzəri baxış daha çox diqqəti cəzb etmişdir.Şübhısiz,istənilən siyasi prioritet milli iqtisadiyyat sahəsinin təkmilləşdirilməsi istqamətlərində sosial problemlərin həlli ilə bağlı həssaslığıyla fərqlənir və eyni vəziyyət ekoloji məsələlərlə,ətraf mühitin müdafisəi ilə bağlı problemlərlə bağlı məsələlər üçün də xarakterikdir.

İnkişaf etmiş ölkələr belə bir problemin aradan qaldırılmasına nail ola bilməmişlər. Belə ki, təkcə 2004 və 2006-ci illər arasında inkişaf etmiş ölkələrdə aclıqdan əziyyət çəkənlərin sayı təxminən 13 milyon nəfər idi və bu göstərici, 2010 və 2012-ci illər arasında 16 milyon nəfərə qalxmışdır (Mirzəliyeva G., 2015: s.32). Buna əsas səbəb isə dünyada baş verən iqtisadi böhran olmuşdur, hansıki ölkələrin maliyyə potensialına mənfi təsir göstərmiş və nəticədə, bazarda ərzaq mallarının qiymətinin artması ilə nəticələnmişdir.

Bununla yanaşı, kənd təsərrüfatında məşğulluq məsələlərinə verilən töhvələr təkcə kəmiyyət baxımdan bağlı olmayıb,həm də keyfiyyət baxımdan da yüksək səciyyəvi xarakter daşıyır.Hansı ki,kənd təsərrüfatı sahələrinin təkmilləşdirilməsi ilə bağlı olaraq sahibkarlıq subyektlərinin –fermer,kəndli təsərrüfatlarının fəaliyyət istqamətlərinin genişləndirilməsi kənd yerlərində əmələ gələn potensial

əmək ehtiyatlarından istifadəni mümkün edir,insanların iş axtarışı məqsədi ilə bağlı başqa yerlərə məcburi surətdə miqarsiyasına mühüm xarakter daşımır,demokrafik vəziyyətdə müsbət hal yaradır və bütövlükdə sosial-iqtisadi məsılələr üzrə həllinə daha potenisalca müsbıt təsir göstərir. Dövlətin institusional mexanizmləri və iqtisadi siyasətinin optimal inkişafı,lazım olduğu təqdirdə mükəmməl olaraq inkişaf etdirilməsi islahatların böyüməsi,daha intensiv iqtisadi siyasətin aparılmasına, xüsusilə də kənd təsərrüfatı sahələrinin gücündən maksimum məhsuldar istfadə edilməsinə imkan verən rəqabət şəraiti və fəal bazarlar formalaşdırır.Kənd təsərrüfatı sahəsinin müxtəlif sahələrində bazar iqtisadiyyatı təchizatları əsasında fəaliyyətin bu sektorda cəmləşən bütün subyekltlər,fiziki şəxslər və fərdi sahibkarlar tərəfindən yüksək maraqla təşkili və həvəsləndirilməsi üçün dövlət tərəfindən həvəsləndirici mexnizmlərin daha da geniş şəkildə hazırlanması və tətbiq edilməsi, kənd təsərrüfatı məhsullarının istehsal edilməsi və son alıcılara çatdırılması xərclərinin müsbət vəziyyətdə optimallaşdırılması tədbirləri üzrə məhsuldar nəticəyə gətirən mexnizmlər hazırlanaraq yerinə yetirilir.

2017-ci ildə dünyada adam başına düşən ərzaq istehlakının aşağı düşməsi və ölkələr arasındakı qida istehlakındakı bərabərsizliyin artması nəticəsində dünyada kifəyət qədər qidalanmayan insanların sayı ciddi şəkildə artırmışdır. Belə ki, 2014 və 2017-ci illər arasında dünyada yetərincə qidalanmayan insanların sayı artaraq, ümumi dünya əhalisnin 10.9 faizini təskil etmişdir .Əgər 2016-cı ildə yetəri qidalanmamadan əziyyət çəkənlərin sayı 804 milyon idisə, 2017-ci ildə bu əhalinin sayı 821 milyona çatmışdır . Dünya əhalisinin yetəri qidalanma problemindəki bu artım, dünya ərzaq bazarının artan əhalinin qida tələbatını yetəri miqdarda və keyfiyyətdə ərzaq ilə təmin edə bilməməsindən irəli gəlir.

Hal-hazırda dünya bazarında əsas məqsəd artan insan sayını nəzərə alaraq ərzaq təhlükəsizliyinin təmin etməkdir. Beynəlxalq ticarətin ən əsas sektorlarından biri olan kənd təsərrüfatı dünya əhalisinin keyfiyyətli və sağlam qida ilə təmin edilməsində mühüm rol oynayır. Belə ki, artan ərzaq qıtlığının və risklərinin qarşısını almaq üçün kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi əsas prioritet hədəf halına gəlmişdir. 2014-cü illə müqayisədə sadəcə Avropa və Şimali

Amerkada ərzaq təhlükəsizliyinin təminatı ciddi şəkildə aşağı olmuşdur, ancaq dünyanın digər regionlarında isə əhalinin keyfiyyətli və yetərli qidaya olan əlçatarlığı səviyyəsi daha çox olubur .Əgər 2014-cü ildə Afrikada kifayət dərcədə qidalana bilməyənlər üçün əziyyət çəkənlər 18.3 faiz təşkil edirdisə, bu göstərici 2017-ci ildə 20.4 faizə qalxmışdır (Cədvəl 1) (FAO," Food Security ",2018:s. 8).

**Cədvəl 1:Dünya üzrə əhalinin yetəri qidalanmama göstəricisi (faiz ilə)**

| | 2005 | 2010 | 2014 | 2017 |
|---|---|---|---|---|
| Dünya | 14.5 | 11.8 | 10.7 | 10.9 |
| Afrika | 21.2 | 19.1 | 18.3 | 20.4 |
| Asiya | 17.3 | 13.6 | 12.0 | 11.4 |
| Latin Amerikası | 9.1 | 6.8 | 6.2 | 6.1 |
| Şimali Amerika və Avropa | 2.5dən daha az | 2.5dən daha az | 2.5dən daha az | 2.5dən daha az |

**Mənbə:** Food and Agriculture (Buzby J.C., Unnevehr B.J, 2018)

Ərzaq qıtlığından ən çox əziyyət çəkən bölgə Afrikadır, çünki sözügedən bölgədə aclıqdan əziyyət çəkənlərin sayı 175 milyon yetkin şəxslərdən 240 milyon nəfərədək çoxalmışdır .

Baxmayaraq ki, faiz göstəricilərinə nəzər saldıqda aclıqdan əziyyət çəkənlərin sayının ümümi əhalinin sayına nisbətdə azaldığı müşahidə edilir, dünya bazarında ərzaq qıtlığından əziyyət çəkənlərin sayı ciddi şəkildə artmışdır. Bu problemin aradan qaldırılması üçün kənd təsərrüfatı fəaliyyətinin və məhsuldarlığını artırılması ən vacib və qaçınılmaz şərtdir. Əsasən inkişaf etməkdə olan ölkələrdə, kənd təsərrüfatının inkişafı başqa tərəfdən həmin ölkələrdə ərzağa olan tələbatı ödəyəcək, digər tərəfdən isə həmin ölkələrdəki insanlara iş imkanları yaradacaqdır.

Bundan əlavə, 2050-ci ilədək ərzağa olan tələbatın iki dəfə artması nəzərdə tutulur, çünki əhalinin sayının 9.1 milyarda çatacağı proqnozlaşdırılır (Qurbanzadə, A, 2017:s. 9). Artmaqda olan dünya əhalisi kənd təsərrüfatı məhsullarına olan tələbatıda artırır və eyni zamanda, bazarda ərzaq qıtlığına təsir göstərir. Bu tələbatın qarşılamasındakı ən vacib həlli yolu taxıl məhsullarının istehsalının artması ilə əlaqədardır. Beləki, taxıl məhsulları əhalinin ərzağa olan tələbatının

təmin olunması və ümumi ərzaq qıtlığının qarşısını almaq üçün ən stratejik məhsullardan biridir.

Dünya taxıl bazarına nəzər saldıqda taxıl istehsalının dünya miqyasında artması ciddi şəkildə nəzərə çarpır. 2010 və 2011-ci illər arasında dünya taxıl istehsalı 2253.7 milyon ton olmuşdur, və bu göstərici sonrakı illərdə ciddi şəkildə artmışdır. Beləki, 2012 və 2013-cü illər arasında dünya bazarındakı taxıl istehsalı 2344.1 milyon ton olmuşdur hansı ki, bir il əvvəl ilə müqayisədə 1.1 faiz artmışdır.

2011 və 2012-ci illər intervalında dünya bazarında buğdanın istehsalı 8.7 faiz artmışdır. Belə ki, həmin tarix intervalında buğda istehsalının həcmi dünya bazarında 700.0 milyon tona qalxmışdır . Lakin, bu göstərici növbəti illərdə kəskin şəkildə düşmüşdür və nəticədə, 2012 və 2013-cü illər arasında buğda istehsalı 675.1 milyon ton olmuşdur.

Digər vacib ərzaq məhsulu olan düyünün istehsalında isə ümumi artım müşahidə edilir. Belə ki, 2010 və 2011-ci illərdə, dünya düyü istehsalı 455.4 milyon ton olmuşdur və bu göstərici 2012 və 2013-cü il intervalında ciddi şəkildə artmış və 480.1 milyon ton olmuşdur (Mirzəliyeva G., 2015 :s.32-36) . Düyü istehsalının artması bu məhsulun dünya bazarındakı qiymətinə də təsir göstərmişdir, çünki düyünün dünya bazarındakı qiyməti 10 faizədək aşağı düşmüşdür.

Dünya bazarında ət və ət məhsullarının istehsalında da ciddi artım müşagidə edilmişdir. Əgər 2010 və 2011 ci illər tarixində ət və ət məhsullarının istehsalı 294.6 milyon ton idisə, bu göstərici 2012 və 2013-cü illər arasında artaraq 302.0 milyon ton olmuşdur .Ət məhsullarının istehsalındakı artım əsasən inkişaf edən ölkələrdəki heyvandarlığın inkişafı və artması ilə əlaqələnir. Beləki, inkişaf etmiş ölkələrdə ət istehsalı prosesinin daha da çətinləşməsi və istehsal üçün tələb edilən xərclərin artması ilə inkişaf edən ölkələr dünya ət bazarında rəqabət avantajı əldə ediblər. Ən çox artımın müşahidə edildiyi qida sektoru süd və süd məhsullarının istehsalı sahəsidir. 2010 və 2011-ci illərdə dünya bazarında südün istehsalı 713.6 milyon ton olmuşdur, və bu göstərici 2012 və 2013-cü illərdə 2.7 faiz artmış və

750.1 milyon ton olmuşdur . İstehsal səviyyəsindəki bu artım süd məhsullarının qiymətinin ciddi şəkildə düşməsi ilə nəticələnmişdir. (Abasov İ.D., 2013: s.37-39).

Dünya ərzaq bazarına diqqəti yetrisək 2013 və 2017-ci illər arasındakı qısa zaman intervalında taxıl, düyü, meyvə, tərəvəz, və ət istehsalında ciddi artımın olduğu müşahidə edilir . Belə ki, 2013-cü illə müqayisədə dünya ərzaq bazarında ətin istehsalı 6.349 milyon ton artmışdır.Belə ki, təkcə buğda istehsalında 2013 və 2017-ci illər arasında 47.4 milyon ton artım müşahidə edilmişdir, hansıki dünya taxıl istehsalındakı artımın ən əsas səbəblərindən biri kimi hesab edilir.

**Cədvəl 2: Dünya Ərzaq Bazarı (milyon ton ilə)**

| | 2013 | 2015 | 2017 |
|---|---|---|---|
| Taxıl | 2526.5 | 2540.9 | 2658.8 |
| Buğda | 712.9 | 734.6 | 760.3 |
| Düyü | 494.4 | 491.7 | 506.3 |
| Meyvə | 31536 | 32831 | 33631 |
| Tərəvəz | 997.84 | 1051.52 | 1094.3 |
| Ət (kəsilmiş) | 84.369 | 89,170 | 90.718 |

**Mənbə**:United states Department of Agriculture ( USDA, 2019 )

Bu kimi kənd təsərrüfatı məhsullarının istehsalındakı artım ərzaq bazarına müsbət təsir edir, çünki dünya ərzaq bazarının istehsal həcminin artması, ərzaq təhlükəsizliyinin inkişaf etməsinə və nəticədə mövcud əhalinin keyfiyyətli və yeteri miqdarda ərzaq ilə təmin olunmasına şərait yaradır.

Belə ki, ərzaq istehsalında inkişaf olmasına baxmayaraq, yetəri qidalana bilməyən dünya əhalisinin ümumi faizi artmaqdadır (Cədvəl 2).

Ərzaq təhlükəsizliyinin təminatı baxımından aqrar sektor ilə bilavasitə əlaqədar olduğundan, bu probleımin həll olunmasında də sırf aqrar sahənin işinin mükəmməlşdirilməsi prioritet məsələlə olaraq qalır.

Strateji əhəmiyyət kəsb edən bu məhsulların dənli bitkilrin və texniki bitkilərin, həmçinin, ət ilə süd məhsulları, meyvə - tərəvəzlərin keyfiyyətinin təmin edilməsi, istehsal dairəsinin genişləndirilməsi, təmiz , gigiyenik cəhətdən əlverişli mühütdə saxlanılması və yerləşdirilməsi ərzaq təhlükəsizliyinin təmin olunması yönündə görülə biləcək ən mühüm şərtlərdəndir. Burada əsas məsələ əhalinin daha

ucuz və yüksək keyfiyyətə malik ərzaq məhsulları ilə təmin olunmasına istiqamətləndirilməlidir ki, bu da ətraflı şəkildə əhali qruplarının daha sağlam, həmçinin də düzgün həyat mühütinin yardılmasına bir göstəricisidir.

**Qrafik 1:Bəzi ixracat məhsullarının məhsuldarığı (ha)**




**Mənbə:** State Statistical Committee of the Republic of Azerbaijan (2017)

Ümumiyyətcə, dünya əhalisinin qidalanmadan əziyyət çəkənlərinin sayındakı artım, dünya ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin kifayət qədər effektiv olmadığının bariz göstəricisidir.

**Şəkil 1:Kənd təsərrüfatı bitkilərini üzrə əkin sahələri**




**Mənbə:** State Statstical Committee of the Respublic of Azerbaijan (2017)

Xüsusilə surətlə artmaqda olan dünya əhali sayını nəzərə aldıqda, yetəri qidalana bilməmədən əziyyət çəkənlərinin dünya əhali sayına olan nisbətinin artacağı qənaətinə gəlmək mümkündür. Buna əsas səbəb isə hal-hazırda fəaliyyət göstərən ərzaq bazarının istehsal potensialındakı artımın dünya əhali sayındakı artıma uyğunlaşmaması və nəticədə ərzaq təhlükəsizliyindən əziyyət çəkənlərin sayının artmasından xəbər verir.

## 2.2 Azərbaycan ərzaq bazarının müasir vəziyyəti

Azərbaycan dövlətinin ən əsas məqsədlərindən biri artmaqda olan ölkə əhalisinin keyfiyyətli və sağlam ərzaq məhsulları ilə təmin olunamsı və nəticədə, potensial ərzaq qıtlığını ölkə miqyasında əngəlləməkdir. Buna görə də, ölkədə aqrar iqtisadi siyasətin ən prioritet hədəflərindən biri ölkə daxilindəki ərzaq istehsalını kənd təsərrüfatı vasitəsi ilə artırmaq və artmaqda olan əhalini lazımı sayda və keyfiyyətdə ərzaq məhsulları ilə təmin etməkdir .

Azərbaycan Respublikasında kənd təsərrüfatı sahəsinin inkişafı üçün yüksək potensial mövcuddur. Beləki, ölkə əhalisinin 47% (4.6 milyon insan) kənd yerlərində məskulaşıblar, və buda ərzaq istehsalı ilə məşğul olan insanların sayının bu ölkədə kifayət qədər çox olması ilə nəticələnmişdir. 2016-cı ildə ölkə əhalisinin 36.4 faizi müxtəlif kənd təsərrüfatı sahələri ilə məşğul olub .

Digər tərəfdən ərzaq istehsalı ilə məşğul olmaq üçün kifayət qədər əkin sahəsinin mövcud olmasıda ölkənin daxili ərzaq tələbatını təmin etməsinə şərait yaradır. Beləki, ölkədə 4769.7 $km^2$ torpaq sahəsi hal-hazırda əkinə yararlı vəziyyətdədir .Lakin, ölkə daxilindəki ən mühüm problemlərdən biri adam başına düşən istifadəyə yararlı torpaq sahəsinin azalmasıdır. Azərbaycan Respublikasında 2000 - ci ildə adam başına düşən əkinə yararlı torpaq sahəsi 0.58 hektar olmuşdur, ancaq sonrakı 15 il ərzində artan əhali sayına görə adam başına düşən yararlı torpaq sahəsi ciddi şəkildə düşmüş və 0.49 hektar olmuşdur (FAO ,2018:s.27).

2014-cü ildə 1612.7 min hektar torpaq sahəsi ərzaq istehsalı üçün istifadə edilmişdir . Həmin torpaq sahəsinin 1000.5 min hektarı dənli və paxlalı bitkilərin yetişdirilməsi üçün istifadə edilmişdir. Tərəvəz və bostan məhsullarının

yetişdirilməsi üçün isə həmin ildə 167.7 min hektar əkin sahəsi istifadə edilmişdir. Bundan əlavə, texniki bitkilərin yetişdirilməsi üçün 43.7 min hektar əkin sahəsi istifadə edilmişdir 2014-cü ildə. 2014-cü ildə pambıq, günəbaxan, tütün və bu kimi texniki bitkilərin əkin sahələrinin genişlədirilməsinə xüsusi diqqət ayrılmışdır.Yem bitkilərinin istehsalı üçün isə 402.7 min hektar əkin sahəsi istifadəyə edilmişdir .

Azərbaycanda mövcud olan iqlim müxtəlifliyi bu ölkədə fərqli ərzaq məhsullarının yetişdirilməsi imkan verir. Beləki, Azərbaycanın cənub bölgəsi, Lənkəran ərazisində müxtəlif sitrus meyvələri, üzüm, taxıl, və çay kimi ərzaq məhsulları yüksək keyfiyyətlə istehsal edilir. Azərbaycanın şimal bölgəsi, Şəki və Zaqatala ərazisində isə qoz, fındıq, tütün, və yemlik taxıl məhsulları yetişir. Pambıq və meyvə yetişdirilməsi üçün Gəncə, və kartof və bal yetişdirilməsi üçünsə Gədəbəy bölgələri fermerləri münbit şərait ilə təmin edir. Abşeron və Bakı ətrafı ərazilər isə yerli bazarın tərəvəzə olan ehtiyacını təmin edir. Bundan əlavə, Quba və Xaçmaz ərazisi isə fermerləri meyvə istehsalı üçün əlverişli və münbit torpaq və su ehtiyatı ilə təmin edir (FAO ,2018:s.14).

Təkcə bitkiçilik sahəsində əkinə yararlı torpaq sahələrinin artmasının şahidi oluruq. Belə ki, 2012-ci ildə bitki istehsalı üçün toplamda 1647.1 min hektar əkinə yararlı torpaq sahəsi ayrılmışdısa, bu göstərici 2017-ci ildə 1665.7 min hektara qədər qalxmışdır (Cədvəl 3). Əkin sahələrindəki artım isə birbaşa istehsal səviyyəsinə təsir edir. Bu arımın əsas səbəbi isə texniki bitkilərə olan diqqətin və marağın artması ilə əlaqədardır. Belə ki, 2012-ci illə müqayisədə texniki bitkilərin istehsalı üçün ayrılmış torpaq sahəsi 2017-ci ildə 3 dəfədən artıq artmışdır. Lakin, digər bitkilərin istehsalı üçün ayrılmış əkin sahələrinin həcmində ciddi düşüş müşahidə edilir. Bu isə dənli və dənli paxlalı bitkilərin, kartof, tərəvəz, və bostan bitkilərinin və yem bitkilərinin ölkədə istehsalına mənfi təsir edir. Hansı ki, əkinə yararlı torpaq sahəsinin texniki bitkilərə ayrılması bu kimi bitkilərin istehsalı üçün lazımı keyfiyyətdə və həcmdə torpaq sahəsinin olmamasına və nəticədə, bu kimi bitkilərin daxili bazarda azlıq təşkil etməsinə səbəb olur.

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından taxılçılıq böyük önəm kəsb edir. Kənd təsərrüfatına ayrılan dövlət

dəstəyi və siyasəti nəticəsində, 2003 və 2012-ci il intervalında ölkə daxilində istehsal edilən taxılın həcmi 36.2 faiz artmışdır .

Təkcə 2014-cü ildə təxminən 991 min hektar əkin sahəsində payızlıq taxıl səpilmişdir. Həmin torpaq sahəsinin 637.4 min hektarı buğda istehsalı üçün və 353.4 min hektarı isə arpa istehsalı üçün istifadə edilmişdir .

**Cədvəl 3**: **Kənd Təsərrüfatı Bitkilərinin Əkin Sahələri (min hektar ilə)**

| İllər | Cəmi | dənli və paxlalı bitkilər | texniki bitkilər | kartof, tərəvəz və bostan bitkiləri | yem bitkiləri |
|---|---|---|---|---|---|
| 2012 | 1647.1 | 1031.4 | 48.5 | 174.5 | 392.7 |
| 2013 | 1684.2 | 1074.1 | 42.2 | 171.5 | 396.4 |
| 2014 | 1613.8 | 1001.4 | 43.8 | 165.7 | 402.9 |
| 2015 | 1585.4 | 952.1 | 38.7 | 166.0 | 428.6 |
| 2016 | 1628.3 | 997.5 | 73.6 | 163.1 | 394.1 |
| 2017 | 1665.7 | 977.2 | 180.9 | 151.5 | 356.1 |

**Mənbə**: Dövlət Statstika Komiitəsi (2019)

Belə ki, 2013-cü ilin payızında başlayan ciddi iqlim dəyişikliyi ölkədə 2014-cü ilin yazınadək quraqlıq ilə nəticələnmişdir. Həmin dövrdə suvarma suyunun qıtlığı nəticəsində bitkilərdə böyümə prosesi normal keçməmiş və məhsuldarlıq ciddi şəkildə gözləntilərin altında qalmışdır. Təxminən 55.7 min hektar ərazi quraq iqlim şəraiti nəticəsində əkinə yararsız vəziyyətə gəlmişdir.

Quralıq şəraitində keçən 2014-cü ildə 963.,4 min hektar əkin sahəsindən toplam 2179,.3 min ton taxıl məmualtı yığılmışdır (Abasov, İ.D, 2013: s. 8). Həmin ildə istehsal olumuş buğdanın kütləsi 1446,.5 min ton, qarğidalının kütləsi 200.,1 min ton, kartofun kütəsi 819,.3 min ton, tərəvəz bitkilərinin ümumi kütləsi 1181,.6 min ton, günəbaxan bitkisinin kütləsi 20,.3 min ton, vvə pambığın kütləsi isə 40,.6 min ton olmuşdur (Mirzəliyeva G., 2015 :s.44).

Dənli paxlalı və dənli  bitkilərin istehsalı ölkədə ciddi şəkildə inkişaf etmişdir. Belə ki, 2011-ci ildə dənli paxlalı və dənli  bitkilərin bitkilərin toplam kütləsi 2955.3 min ton olmuş və bu göstərici 2016-cı ildə artaraq 3065.1 min tona çatmışdır (Cədvəl 3).

Belə bir ciddi artımın ən əsas səbəbi isə buğda, arpa, və qarğıdalı istehsalındakı inkişaf ilə əlaqələnir. 2011-ci ildə ölkə daxilində istehsal edilən buğdanın toplam çəkisi 1639.8 min ton olmuşdur və bu göstərici 2016-cı ildə 1847.2 min tona qalxmışdır. Arpa istehsalında da həmin tarix intervalında ciddi artım müşahidə edilmişdir.

**Cədvəl 4**: **Qarğıdalı ehtiyatı (ton)**

| ton | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | *ton* |
|---|---|---|---|---|---|---|---|
| | | | **EHTİYATLAR – RESOURCES** | | | | |
| İlin əvvəlinə qalıq | 69 602 | 85 315 | 108 504 | 117 315 | 128 785 | 111 363 | *Stocks at the beginning of year* |
| İstehsal | 181 930 | 208 178 | 203 596 | 214 090 | 223 991 | 235 669 | *Production* |
| İdxal | 88 351 | 138 770 | 155 262 | 181 653 | 90 876 | 97 666 | *Import* |
| **Ehtiyatların cəmi** | **339 883** | **432 263** | **467 362** | **513 058** | **443 652** | **444 698** | ***Total of resources*** |

**Mənbə:** Dövlət Statstika Komitəsi (2018)

Belə ki, 2011-ci ildə toplam arpa istehsalı 600.1 min ton olmuşdur, hansıki 2016-cı ildə artaraq 939.0 min ton olmuşdur. Eyni artım tərzi qarğıdakı istehsalında da rast gəlinir. 2011-ci ildə qarğıdalı istehsalı 152.3 min ton olmuş və artaraq 2016-cı ildə 224.0 min ton təşkil etmişdir. (Azərbaycan Statistika Komitəsi,2017: s.77).

Digər tərəfdən bu tarix intervalında pambıq, tərəvəz və bostan bitkilərinin istehsalında artım müşahidə edilmişdir (Cədvəl 6). İstehsal həcmindəki artım daxili bazarın bu bitkilərə olan tələbatını təmin etmək və idxaldan asılılığı azaltmaq baxımından çox əhəmiyyətlidir.

**Cədvəl 5**: **Dənli və dənli paxlalıların ehtiyatları (ton)**

| ton | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | *ton* |
|---|---|---|---|---|---|---|---|
| | | | **EHTİYATLAR – RESOURCES** | | | | |
| İlin əvvəlinə qalıq | 1 125 049 | 1 421 790 | 1 630 496 | 1 270 782 | 1 395 661 | 1 495 190 | *Stocks at the beginning of year* |
| İstehsal | 2 728 298 | 2 876 515 | 2 319 747 | 2 920 055 | 2 981 455 | 2 839 355 | *Production* |
| İdxal | 1 508 376 | 1 619 303 | 1 498 632 | 1 603 026 | 1 704 048 | 1 438 077 | *Import* |
| **Ehtiyatların cəmi** | **5 361 723** | **5 917 608** | **5 448 875** | **5 793 863** | **6 081 164** | **5 772 622** | ***Total of resources*** |

**Mənbə:** Dövlət Statistika Komitəsi (2018)

Belə ki, pambıq, kartəf, tərəvəz və bostan məhsullarının daxildəki istehsalının artması, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsinə müsbət təsir göstərir, çünki əhali bazarda lazımi miqdarda və keyfiyyətdə məhsulu daha səmərəli və əlçatan şəkildə əldə edir. Buğda istehsalı Azərbaycan Respublikasında ən çox diqqət ayrılan və istehsal və gəlir potensialı yüksək olan ən vacib taxıl bitkisidir. Təkcə 2015-ci ildə 1.35 milyon ton istehsal edilmiş buğda Rusiyaya eksport edilmişdir, hansıki $296 milyon gəlir gətirmişdir ölkə daxilinə.

**Cədvəl 6**:**Bitkiçilik Məhsullarının Növləri Üzrə İstehsalı (Min ton ilə)**

| İllər | Dənli və Paxlalı Bitkilər | Pambıq | Kartof | Tərəvəz | Bostan Məhsulları |
|---|---|---|---|---|---|
| 2013 | 2955.3 | 45.2 | 992.8 | 1236.3 | 429.8 |
| 2014 | 2383.3 | 41.0 | 819.3 | 1187.7 | 440.9 |
| 2015 | 2999.4 | 35.2 | 839.8 | 1275.3 | 484.5 |
| 2016 | 3065.1 | 89.4 | 902.4 | 1270.6 | 464.8 |
| 2017 | 2928.8 | 207.5 | 913.9 | 1405.6 | 438.1 |

**Mənbə:** Dövlət Statistika Komitəsi (2019)

FAO-nun Azərbaycan daxilində keçirdiyi araşdırma nəticəsində, bu ölkənin meyvə və tərəvəz istehsalında ciddi rəqabət avantajının olduğu müəyyən edilmişdir. Xüsusən portağal və alma kimi meyvə növləri və pomidor və kələm kimi tərəvəz növləri Azərbaycan daxilindəki iqlim şəraitində yüksək keyfiyyətlə istehsal edilir (FAO ,2018:s. 32).

2014-cü ildəki iqlim dəyişikliyi meyvə istehsalı prosesinə mənfi təsir göstərməsinə baxmayaraq, ölkədə meyvə istehsalının səviyyəsi bu dövrdə yüksək olmuşdur.

**Cədvəl:7: Buğda ehtiyatları (ton)**

ton | ton

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | |
|---|---|---|---|---|---|---|---|
| | | | **EHTİYATLAR – RESOURCES** | | | | |
| İlin əvvəlinə qalıq | 821 177 | 1 067 576 | 1 229 652 | 856 804 | 875 248 | 1 025 631 | *Stocks at the beginning of year* |
| İstehsal | 1 797 028 | 1 841 307 | 1 407 405 | 1 639 830 | 1 799 859 | 1 769 574 | *Production* |
| İdxal | 1 366 335 | 1 451 257 | 1 195 656 | 1 353 072 | 1 599 599 | 1 274 434 | *Import* |
| **Ehtiyatların cəmi** | **3 984 540** | **4 360 140** | **3 832 713** | **3 849 706** | **4 274 706** | **4 069 639** | ***Total of resources*** |

**Mənbə:**Dövlət Statistiika Komitəsi (2018)

Belə ki, 134.2 min hektar əkin sahəsi meyvə istehsalı üçün istifadə edilmişdir 2014-cü ildə, və həmin sahənin 16.1 min hektarı üzüm bağlarının salınması üçün istifadə edilmişdir . 2014-cü ildə toplam 844.6 min ton meyvə istehsal edilmişdir. Həmin istehsalın 147.6 min tonunu üzüm və 457.2 tonunu isə çay yarpağı istehsalı təşkil etmişdir.

2000 və 2017-ci il intervalında, ölkədə meyvə istehsalı üçün əkin sahələri genişləndirilmişdir. Belə ki, 2000-ci ildə 83.1 min hektar ərazi meyvə və giləmeyvə istehsalı üçün istifadə edilmişdir. Meyvə və giləmeyvə istehsalı üçün əkin sahələri 2017-ci ildə artıq 171.8 min hektara çatmışdır . Meyvə və giləmeyvə istehsalı üçün əkin sahələrinin artması kənd təsərrüfatının bu sahəsinə ciddi şəkildə təsir göstərmişdir. 2000-ci ildə ölkədə toplam meyvə və giləmeyvə istehsalı 477.0 min ton olmuşdur, və bu göstərici növbəti illərdə meyvə və giləmeyvəyə arılan əkin sahələrinin artımı nəticəsindən qalxmışdır. Buna görədə, 2017-ci ildə ölkədə meyvə və giləmeyvə istehsalının toplam çəkisi 882.7 min tona çatmışdır qalxmışdır .Bu artım özünü birbaşa ümumi istehsalda da göstərmişdir. Belə ki, toplam meyvə və giləmeyvə istehsalı 810 min tondan 954.8 min tona qalxmışdır. İstehsaldakı bu artım ölkədə ərzaq bazarına müsbət təsir göstərir. Meyvə və giləmeyvə istehsalının artması ölkənin daxili bazarı yüksək keyfiyyətə sahib olan və səmərəli ərzaq məhsulları ilə təmin etməsinə müsbət təsir göstərir. Belə ki, daxili bazara meyvə və giləmeyvə idxalı azalır və ölkənin ərzaq təhlükəsizliyi daxili istehsalat hesabına təmin edilir. Kənd təsərrüfatının bu sahəsinin artım tempi onu göstərirki, yaxın gələcəkdə ölkə daxili meyvə və giləmeyvə tələbatını öz istehsal potensialını hesabına təmin edəcək. 2012 və 2017-ci illər arasında meyvə və giləmeyvə istehsalı üçün istifadə edilmiş əkin sahəsinin həcmi 133,5 min hektardan 186,4 min hektara qalxmışdır (Cədvəl 8).

Bundan əlavə, bu sahədəki artım tempi onu göstərir ki, ölkənin əhalini yetəri miqdarda və keyfiyyətdə meyvə və giləmeyvə məhsulları ilə təmin etmə potensialı inkişaf etməkdədir və bu inkişaf daxili istehsaldakı artım hesabına əldə edilir. Meyvə və giləmeyvə istehsalına ən çox təsir edən məhsulda məhz alma istehsalıdır. Daha sonrakı ən məhsuldar sahə xurma istehsalıdır.

Belə ki, 2016-cı ildə ölkədəki xurma istehsalı 142.9 min ton olmuşdur (Dövlət Statistika Komitəsi,2017 :s.82-84). Azərbaycanda meyyvə və giləmeyvə istehsalı zamanı ən çox məhsuldarlıq alma, xurma və nar kimi məhsulların payına düşür. Alma istehsalı ölkədə ən çox artan və məhsuldar kənd təsərrüfatı sahəsidir. 2011-ci ildə ölkədə istehsal edilən toplam almanın çəkisi 223.1 min ton olmuşdur və bu göstərici 2016-ci ildə artaraq 254.3 min ton olmuşdur .

**Cədvəl 8 :Meyvə İstehsalı**

| İllər | Əkin Sahəsi (min hektar ilə) | Toplam İstehsal (min ton ilə) | Məhsuldarlıq (Hektar başına sentner ilə) |
|---|---|---|---|
| 2012 | 133.5 | 810.0 | 73.8 |
| 2013 | 134.2 | 853.8 | 74.3 |
| 2014 | 138.5 | 850.8 | 72.0 |
| 2015 | 144.1 | 888.4 | 71.4 |
| 2016 | 171.8 | 882.8 | 65.7 |
| 2017 | 186.4 | 954.8 | 68.4 |

**Mənbə:** Dövlət Statstika Komitəsi (2019)

Xurma istehsalının yüksək olmasına baxmayaraq, 2011-ci illə müqayisədə ölkədəki xurma istehsalında ciddi düşüşün mövcud olduğu aşkar olur. 2011-ci ildə ölkədəki toplam xurma istehsalı 146.1 min ton olmuşdur. Ən çox istehsal edilən digər məhsul isə nardır, çünki 2011-ci ildə bu meyvənin istehsal səviyyəsi 145.1 min ton .

Azərbaycanda meyvə və giləmeyvə istehsalına nəzər saldıqda 2000 və 2015-ci il intervalında ən ciddi inkişafın üzümçülükdə müşahidə olunduğu ciddi nəzərə çarpır.

**Cədvəl 9: Meyvə və giləmeyvələrin ehtiyatları (ton)**

| ton | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | ton |
|---|---|---|---|---|---|---|---|
| **EHTİYATLAR – RESOURCES** | | | | | | | |
| İlin əvvəlinə qalıq | 44 741 | 43 582 | 44 148 | 40 591 | 46 554 | 48 538 | *Stocks at the beginning of year* |
| İstehsal | 810 022 | 853 757 | 850 803 | 888 416 | 882 800 | 954 785 | *Production* |
| İdxal | 65 159 | 34 533 | 25 170 | 74 743 | 95 186 | 98 732 | *Import* |
| **Ehtiyatların cəmi** | **919 922** | **931 872** | **920 121** | **1 003 750** | **1 024 540** | **1 102 055** | ***Total of resources*** |

**Mənbə:** Dövlət Statstika Komitəsi (2018)

Belə ki, 2000-ci ildə ölkədəki toplam üzüm istehsalı 76.9 min ton olmuşdur, və 2015-ci ildə toplam üzüm istehsalı 2 dəfədən daha çox artmış və 157.1 min ton olmuşdur . Burda ən vacib amil isə üzümçülüyün inkişafı üçün ayrılan əkin sahəsinin qeyd edilən tarix intervalında ciddi şəkildə artmamasıdır. Belə ki, 2000-ci ildə 14.2 min hektar əkin sahəsi üzüm istehsalı üçün istifadə edilmişdir, və 2015-ci ildə üzüm istehsalı üçün istifadə edilən toplam əkin sahəsi 16.1 min hektar olmuşdur (Dövlət Statistika Komitəsi,2017 :s 84-89). Ümumiyyətcə, bu tarix intervalında üzüm istehsalı üçün ayrılan əkin sahəsinin həcmi cəmi 1.9 min hektar artmışdır, lakin istehsal səviyyəsi 80.2 min ton artmışdır. Burdan belə nəticə çıxarmaq olurki, üzüm istehsalı prosesində mövcud olan əkin sahələrinin potensialında yüksək səviyyədə istifadə edilmişdir. Ümumiyyətcə, meyvə və giləmeyvə istehsalındakı artım ölkənin əhalini daxili istehsal hesabına ərzaq məhsulları ilə təmin etmə potensialına müsbət təsir göstərir. Bundan əlavə, kənd təsərrüfatının bu sektorundakı inkişaf tempi onu göstərir ki, Azərbaycanda əhalinin keyfiyyətli və yetəri miqdarda meyvə və giləmeyvə məhsulları ilə təmin edilməsi inkişaf etməkdədir. Belə ki, istehsal artımı birbaşa daxili bazarda ərzaq məhsullarının artmasına və nəticədə, əhalinin daha keyfiyyətli və səmərəli məhsulları əldə etməsinə şərait yaradır. Bu səbəbdən, Azərbaycanda meyvə və giləmeyvə istehsalındakı inkişaf ölkə əhalisinin ərzaq təhlükəsizliyini artırır və idxaldan asılığını azaldır.

Kənd bölgələrində əhali əkin fəaliyyətindən əlavə əsasən heyvandarlıqla məşğul olurlar. Azərbaycanda heyvandarlığın bir çox sahəsi inkişaf etmişdir.

Ümumiyyətcə, Azərbaycanda inək və camışın sayı 2003 və 2017-ci illər arasında daima stabil şəkildə artmışdır. Belə ki, 2003-ci ildə inək naxırının sayı 1075714 baş olmuşdur və bu göstərici 2017-ci ildə 1285784 baş inək naxırına qalxmışdır . İnək və camışların sayındakı bu artım birbaşa ölkədə süd istehsalına müsbət təsir edir və nəticədə, əhalini keyfiyyətli və səmərəli süd və süd məhsulları ilə təmin edir. Belə ki, 2003-cü illə müqayisədə ölkədə süd istehsalı 2017-ci ildə ciddi şəkildə artmış və 2024143 ton təşkil etmişdir (Cədvəl 10).

1991-ci ildə inək naxırının sayı 1533.3 min olmuşdur və bu göstərici 2011-ci ilədək ciddi şəkildə artmışdır .Ölkədə iribuynuzlu mal-qaranın da sayında 2003 və 2017-ci illərdə ciddi artım müşahidə edilmişdir. Əgər 2003-cü ildə iribuynuzlu mal-qaranın sayı 2241781 idisə, 2017-ci ildə bu say artaraq 2672990 olmuşdur .

Azərbaycanda inək ilə yanaşi digər heyvan növləri də istehsal edilir. Bunların içində ən çox gəlir gətirən heyvanlardan biri də camışdır.Belə ki, 2017-ci ilin rəsmi statistikasına əsasən, ölkədə 214.2 min baş camış baxılmışdır .

**Cədvəl 10: Heyvandalığın Sahələri Üzrə İstehsal**

| | 2003 | 2009 | 2015 | 2017 |
|---|---|---|---|---|
| Inək və Camışların Sayı | 1075714 | 1249190 | 1302963 | 1285784 |
| İribuynuzlu Mal-Qaranın Sayı | 2241781 | 2582359 | 2708291 | 2672990 |
| Qoyun və Keçilərin Sayı | 7280146 | 8331177 | 8677087 | 8454308 |
| Yumurtanın Sayı | 681860 | 1209399 | 1552916 | 1714024 |
| Yun İstehsal (ton ilə) | 12086 | 15252 | 17020 | 16040 |
| Ət İstehsalı (ton ilə) | 185642 | 231497 | 298613 | 316827 |
| Süd İstehsalı (ton ilə) | 1167785 | 1432808 | 1924542 | 2024143 |

**Mənbə:** Dövlət Statistika Komitəsi (2019)

Cəlilabad və Sabirabad bölgələri Azərbaycan ərazisində ən çox inək naxırının mövcud olduğu bölgələrdir. Belə ki, Cəlilabad rayonunda 49959 min baş inək və Sabirabad rayonunda isə 54482 min baş inək qeydiyyata alınmışdır (Mirzəliyeva G., 2015:s. 42-44). Ən çox camış Azərbaycanın Yevlax və Ağdaş bölgələrində mövcuddur. 2014-cü ildə isə Ağdaş rayonunda camış naxırının sayı 26248 baş və Yevlax rayonunda isə 24193 baş olmuşdur (Mirzəliyeva G., 2015:s. 45).

Mal-qara sayındakı artım ölkədə ümumi ət istehsalına ciddi şəkildə təsir etmişdir. Belə ki, ət istehsalı 2003-cü illə müqayisədə 2017-ci ildə 131185 ton artmışdır (Cədvəl 10). Bu artımın ən əsas səbəbi isə iribuynuzlu mal-qara sayındakı artımla əlaqədardır. Belə ki, heyvandarlığın bu sahəsi ölkədə ət istehsalına birbaşa və ciddi şəkildə təsir etmişdir. Bu sahədəki inkişaf ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Buna əsas səbəb isə ölkənin ət idxaldan asılığını azaldır və əhaliyə daha keyfiyyətli və münasib qiymətə olan ət məhsulları ilə təmin edir. Xüsusilə, artan əhali sayını

nəzərə aldıqda ölkənin ət istehsalının artması gələcəkdə əhalinin bu məhsula olan tələbatının təmin edilməsində böyük rol oynayacaqdır.

Azərbaycanın kənd bölgələri qədim zamanlardan qoyunçuluq ilə məşğul olmuşlar. Buna əsas səbəb isə bölgənin qoyunçuluq üçün yüksək potensiala sahib olması olmuşdur, çünki münbit yaylaq və qışlaqlar kənd təsərrüfatının bu sahəsinin inkişafına böyük təkan vermişdir. Bundan əlavə, Azərbaycan əhalisinin qoyun ətinə meyilliliyi və xalçaçılığı çox sevdiklərinə görə qoyunçuluq bu ölkədə yüksək səviyyədə inkişaf etmişdir. 2014-cü ildə ölkədəki qoyunların 52.7 faizi cins və cinsi inkişaf etdirilmiş qoyunlar təşkil etmişdir . Azərbaycanda ən çox yetişdirilən qoyun növü isə qarabağ və bozax cinsli qoyunlardır. 2003 və 2017-ci illər intervalında Azərbaycanda qoyun və keçilərin sayı ciddi şəkildə artmışdır. 2003-ci ildə ölkədə 7280146 baş qoyun və keçi olmuşdur, hansıkı artaraq 2017-ci ildə 8454308 baş qoyun və keçi olmuşdur . Ən çox qoyunların yetişdirildiyi bölgələr Gədəbəy, Şəki və Ağcabədi rayonlarıdır,o cümlədən, 2014-cü ildə Gədəbəy rayonunda qoyunların sayı 363638 baş, Şəki rayonunda 304756 baş, və Ağcəbədi rayonunda isə 323326 baş qoyun mövcud olmuşdur (Mirzəliyeva G.,2015:s.45). Qoyunçuluq sahəsindəki inkişaf ölkədəki ət istehsalına müsbət təsir edir. Belə ki, qoyunların sayındakı artım bazarda qoyun ətinin qiymətinin düşməsinə və daxili bazarın yerli istehsal vasitəsilə ət məhsulları ilə təmin olunmasına şərait yaradır. Bundan əlavə, qoyun sayındakı artım eyni zamanda ölkədə yun istehsalınada müsbət təsir göstərmişdir (Cədvəl 10). Bu heyvanların sayındakı artım ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması tərəfindən böyük əhəmiyyət nəzərədə tutur. Belə ki, yerli bazarda ət məhsullarının sayı artır və daxili tələbat daha çox yerli istehsal hesabına qarşılanır. Artmaqda olan ölkə əhalisini nəzərə aldıqda, gələcəkdə ət məhsullarına olan tələbatın daha da artacağı qənaətinə gəlmək mümkündür. Bu vəziyyətdə, qoyunçuluq və mal-qara istehsalındakı artım gələcəkdə ehtimal edilən ərzaq qıtlığının qarşısının alınmasında və əhalinin yetəri miqdarda və keyfiyyətdə ət məhsulları ilə təmin olunmasında böyük rol oyanayacaqdır.

Ümumiyyətcə, ölkədə kənd təsərrüfatl sahəsindəki inkişaf ölkənin həm rəqabət qabiliyyətini artırır beynəlxalq bazarda həmdə ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsini və inkişafını təmin edir.

İnək və camış naxırlarının sayının artması ölkə daxilində süd məhsullarınında istehsalına ciddi təsir göstərir. Artan əhali sayı ölkə daxilində ət və süd məhsullarına ciddi tələbat yaradır və inək naxırlarının sayının artmasıda ölkə daxilində süd və süd məhsullarına olan tələbatı qarşılamağa ciddi şəkildə şərait yaradır. Belə ki, ölkədə artan əhali sayını nəzərə aldıqda yaxın gələcəkdəki potesial ərzaq qıtlılğının qarşısının alımasında və əhalinin yetəri keyfiyəttdə və miqdarda süd və süd məhsulları ilə təmin edilməsidə inək və camış sayının artırılması böyük önəm kəsb edir. Belə ki, daxili bazardakı süd məhsullarına olan tələbin yerli istehsal vasitəsilə təmin edilməsi ölkədə bu məhsulların idxalından asılığa son qoymaqda və davamlı surətdə artan əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasında böyük rol oynayır.

**Cədvəl 11: Süd və süd məhsulları ehtiyatları (ton)**

ton | ton

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | |
|---|---|---|---|---|---|---|---|
| | | | **EHTİYATLAR – RESOURCES** | | | | |
| İlin əvvəlinə qalıq | 119 739 | 152 313 | 158 195 | 164 815 | 22 115 | 4 914 | *Stocks at the beginning of year* |
| İstehsal | 1 695 588 | 1 796 706 | 1 855 838 | 1 924 542 | 2 009 913 | 2 024 143 | *Production* |
| İdxal | 642 255 | 573 587 | 581 753 | 366 035 | 288 488 | 344 018 | *Import* |
| **Ehtiyatların cəmi** | **2 457 582** | **2 522 606** | **2 595 786** | **2 455 392** | **2 320 516** | **2 373 075** | ***Total of resources*** |

**Mənbə**: Azərbaycan Dövlət Statsitika komitəsi (2018)

## 2.3 Aqrar sahənin inkişafının ərzaq təhlükəsizliyinin təmin edilməsinə təsiri

Ölkə daxilində ərzaq təhlükəsizliyin təmin olunması və yerli əhalinin ərzağa lazımi olan tələbatını effektiv şəkildə qarşılamaq üçün kənd təsərrüfatının inkişafı böyük önəm kəsb edir. Hər hansı bir ölkədə ərzaq təhlükəsizliyini həyata keçirmək üçün dayanıqlı və inkişaf edən kənd təsərrüfatının yaradılması zərurətdir.Bu mənada, effektiv ərzaq təhlükəsizliyi strategiyası daha çox ölkə əhalisinin yerli resurs potensialı hesabına lazımı ərzaq məhsulları ilə təmin olunması ilə sıx

əlaqələnir. Azərbaycanda son illərdə ərzaq məhsullarının istehsalındakı artım ölkənin özünü ərzaq ilə təmin etmə potensialının artmasının bir göstəricisidir. Lakin, son illərdə taxıl istehsalındakı inkişafa baxmayaraq, əldə edilmiş göstəricilər ərzaq təhlükəsizliyi baxımından kifayət qədər yüksək səviyyədə deyil. Buna əsas səbəb isə ölkənin hələdə taxıl məhsullarına olan tələbatının bir hissəsinin import vasitəsi ilə qarşılanmasıdır .Eyni vəziyyət heyvandarlıq sahəsində də müşahidə olunur. Belə ki, bu sahədəki ciddi inkişafa baxmayaraq, ölkənin ət və ət məhsullarına olan tələbənin bir qismi xarici ölkələrdən eksport hesabına qarşılanır.

Azərbaycanda kənd təsərrüfatı sahəsindəki inkişaf ərzaq təhlükəsizliyinin təmin edilməsinə müsbət təsir göstərir. Lakin, bu məqamda əsas məsələ toplam istehsal səviyyəsindəki artımla əlaqəli deyildir.Burda əsas məsələ, adam başına düşən ərzaq məhsulundakı artımdır (Əliyeva A.,2013:s.41-42).

**Cədvəl 12 : Bütün növ ət və ət məhsulları ehtiyatları (ton)**

| ton | | | | | | | *ton* |
|---|---|---|---|---|---|---|---|
| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | |
| | | | EHTİYATLAR – RESOURCES | | | | |
| İlin əvvəlinə qalıq | 7 846 | 9 998 | 9 896 | 9 279 | 4 139 | 4 245 | *Stocks at the beginning of year* |
| İstehsal | 276 035 | 286 879 | 291 189 | 298 613 | 302 227 | 316 827 | *Production* |
| İdxal | 26 512 | 25 144 | 25 418 | 17 567 | 41 719 | 57 991 | *Import* |
| **Ehtiyatların cəmi** | **310 393** | **322 021** | **326 503** | **325 459** | **348 085** | **379 063** | ***Total of resources*** |

**Mənbə**: Azərbaycan Dövlət Statstika komitəsi (2018)

Əgər ərzaq istehsalındakı artım ölkə əhalisinin artım tempindən aşağıdırsa, belə vəziyyətdə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı ciddi problem üzə çıxa bilər. Burda əsas məsələ ondan ibarətdir ki, əgər əhalinin sayı yüksək tempdə inkişaf etsə və istehsal səviyyəsindəki inkişaf əhali artımından aşağı olarsa, insanların ərzağa olan tələbatı artar və nəticədə, ərzaq təhlükəsizliyi baxımından heç bir inkişaf əldə edilməz.

Azərbaycanda adam başına düşən istehsal payı nəzərə alındıqda kənd təsərrüfatı sahəsindəki inkişafın ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsinə ciddi təsir etmədiyi və bu sahənin daha da inkişaf etdirilməyinə ehtiyacın olduğu

aydınlaşır. Misal üçün, 2005-ci ildə adam başına düşən kartof istehsalı 124 kq olduğu halda, bu göstərici 2011-ci ildə 104 kq olmuşdur, yəni 16.2 faiz azalmışdır Digər tərəfdən tərəvəz istehsalında da adam başına düşən payda ciddi azalma müşahidə edilir. Belə ki, 2000-ci ildə ölkədə adam başına düşən tərəvəz istehsalı 141 kq olmuşdur, hansıki 2011-ci ildə 5 faiz azalmış və 134 kq olmuşdur Bu səbəbdən, kartof, və tərəvəz kimi vacib kənd təsərrüfatı sahələrinin məhsuldarlığının artırılması ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımında böyük önəm kəsb edir .

Adam başına düşən məhsuldarlıq analiz edildikdə, kənd təsərrüfatının bir neçə sahəsində ciddi inkişafın mövcud olduğu aşkar olur. Belə ki, kənd təsərrüfatının taxılçılıq, heyvandarlıq, süd, meyvə və giləmeyvə kimi bir neçə sahəsində adam başına düşən istehsal səviyyəsi ciddi şəkildə artmışdır. Toplam taxıl istehsalındakı inkişaf onun adam başına düşən payınada müsbət təsir göstərmişdir. 2005-ci ildə il ərzində hər nəfərə düşən taxıl istehsalı 248 kq olmuş və bu göstərici 2011-ci ildə artaraq  265 kq olmuşdur .Ət məhsullarında da eyni vəziyyətə rast gəlinir.

**Cədvəl 13** : **Kartof ehtiyatları  (ton)**

ton | | | | | | | *ton*

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | |
|---|---|---|---|---|---|---|---|
| | | | EHTİYATLAR – RESOURCES | | | | |
| İlin əvvəlinə qalıq | 530 217 | 553 153 | 580 842 | 541 666 | 534 264 | 592 252 | *Stocks at the beginning of year* |
| İstehsal | 968 545 | 992 780 | 819 319 | 839 795 | 902 396 | 913 899 | *Production* |
| İdxal | 76 605 | 78 054 | 143 634 | 139 239 | 191 204 | 168 800 | *Import* |
| **Ehtiyatların cəmi** | **1 575 367** | **1 623 987** | **1 543 795** | **1 520 700** | **1 627 864** | **1 674 951** | ***Total of resources*** |

**Mənbə**:Azərbaycan Dövlət Statsitika komitəsi (2018)

2005-ci ildə illik adam başına düşən ət istehsalı 24 kq olmuşdur və bu səviyyə 2011-ci ildə artaraq 29 kq olmuşdur . Bundan əlavə, hər nəfərə düşən meyvə və giləmeyvə çəkisində də həmin tarix intervalında yüksək artım müşahidə edilibdir. Belə ki, 2005-ci ildə il ərzində adam başına düşən meyvə və giləmeyvənin həcmi 75 kq olmuşdur və onun çəkisi 2011-ci ildə artaraq 85 kq olmuşdur . Eyni zamanda, süd məhsullarının istehsalındakı artım da hər nəfərə

düşən istehsal səviyyəsinə müsbət təsir göstərmişdir. 2005-ci ildə il ərzində hər nəfər düşən südün çəkisi 149 l olduğu halda, bu çəki 2011-ci ildə 197 l olmuşdur (Əliyeva A.,2013:s.43).

Son illərdə müşahidə olunan kənd təsərrüfatı sahəsindəki istehsal artımı ölkənin özünü ərzaqla təmin etmə bacarığını inkişaf etdirir və nəticədə, ərzaq təhlükəsizliyini daxili istehsal hesabına həyata keçirməyə imkan yaradır. Belə ki, əhalinin daxili bazar hesabına ərzaqla təmin edilməsi ölkənin ərzaq təhlükəsizliyi ilə bağlı tədbirləri daha effektiv və səmərli şəkildə həyata keçirməsinə və xarici bazarda mövcud olan az keyfiyyətə sahib və sağlamlıq üçün riskli məhsulların ölkəyə daxil olmamasına şərait yaradır.

Ümumiyyətcə, Respublikamızda əhalinin daha etibarlı ərzaq ilə təmin olunması ölkənin iqtisadi siyəsətinin ən prioritet hədəflərindən biridir. Belə ki, daxili ərzaq tələbatını yüksək keyfiyyətə sahib olan və sağlam ərzaq məhsulları ilə təmin etmək ən əsas amildir.

Ölkə əhalisinin ərzaq təminatı isə iki istiqamətdə həyata keçirilir:

- Yerli istehsal vasitəsilə özünütəminetmə
- İdxal kanalları vasitəsilə özünütəminetmə (Əliyeva A.,2013:s.39):

Belə ki, əgər yerli istehsal səviyyəsi əhalini yetərincə və keyfiyyətli ərzaq məhsulları ilə təmin edə bilirsə, ərzaq təhlükəsizliyi ilə bağlı risklər ciddi şəkildə aşağı düşür. Buna səbəb isə xaricdən idxal edilən ərzaq məhsullarında ərzaq təhlükəsizliyi riski yüksək olduğu üçün və daxili istehsal prosesinə ciddi dövlət nəzarəti mövcud olduğu üçün ərzaq təhlükəsizliyinin təmin edilməsi daha effektiv və səmərəli şəkildə həyata keçirilir .

Azərbaycan Respublikasında son illərdə əldə edilən ərzaq istehsalı səviyyəsindəki inkişaf nəticəsində, bu ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsinə şərait yaradır. Belə ki, taxıl məhsullarındakı, heyvandarlıqdakı, meyvə istehsalındakı və digər kənd təsərrüfatı sahələrindəki istehsal artımı, ölkədə artmaqda olan əhalinin yetərincə və daha keyfiyyətli ərzaq məmulatları ilə təchiz edilməsinə şərait yaradır .

Son illərdəki istehsal artımı Azərbaycanın ərzaq məhsullarının ixrac səviyyəsinədə müsbət təsir göstərmişdir. Belə ki, 2005-ci ildə ixrac olunun toplam ərzaq məhsullarının dəyər $390.1 milyon dəyərində olduğu halda, bu göstərici 2017-ci ildə $717.0 milyon olmuşdur . (Əliyeva A.,2013:s.46).

Kənd təsərrüfatının ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ən vacib amil olduğunu nəzərə alaraq, Azərbaycan dövlətidə bu sahənin inkişafı üçün kifayət qədər diqqət ayırmışdır. Belə ki, təkcə 2004-cü ildə dövlət büdcəsi və digər mənbələrdən, AqroLizinq ASC 493.43 milyon manat vəsaiti kənd təsərrüfatını inkişaf etdirmək üçün istafadə etmişdir . Həmin vəsaitin 190.72 milyon manatı kənd təsərrüfatı texnikalarına, 114.55 milyon manat mineral gübrələrə, 22.86 milyon manat damazlıq heyvanların idxalına, və 50.5 milyon manat isə müəyyən infrastrukturun inkişafına ayrılmışdır .

2004-cü ildə Azərbaycan Respublikasında ölkə əhalisinin il ərzində ərzaqla təminatını inkişaf etdirmək məqsədi ilə 39 ədəd soyuducu kameralar quraşdırılmışdır, hansıki toplamda 54.8 ton meyvə və digər məhsulların sağlam şəkildə qorunması və lazımı vaxtda istehlaka verilməsinə şərait yaratmışdır (Abasov İ.D.,2013:s.9-10). Bundan əlavə, həmin ildə tərəvəz sahəsinidə inkişaf etdirmək məqsədi ilə AvroLizinq ASC tərəfindən 14 ədəd yeni istixana quraşdırılmışdır hansıki toplamda 27.1 hektar əkinə yararlı torpaqda yüksək keyfiyyətə sahib tərəvəz məhsullarının yetişdirilməsinə şərait yaratmışdır. Eyni zamanda, heyvandarlığın inkişafı məqsədi ilə 2009 və 2012-ci il intervalında 6290 cins düyə idxal edilmişdir.

Görülmüş bu kimi dövlət tədbirləri də ölkə daxilindəki ərzaq istehsalı səviyyəsinə ciddi təsir göstərmişdir. Hal-hazırda Azərbaycan Respublikasının ən əsas məqsədlərindən biri daxili ərzaq tələbatını daxili istehsal vasitəsi ilə təmin etmək və mümkün olduğunca çox ərzaq məhsulu ixrac etməkdir (Abasov İ.D.,2013:s. 11). Artan əhalinin ərzağa olan tələbatının kənd təsərrüfatı məhsulları vasitəsi ilə təmin edilməsi və nəticədə potensial qida qıtlığı probleminin aradan qaldırılması, Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin müvəffəqiyyətlə həyata keçirilməsində ən əsas amil rolunu oynayır.

# III Fəsil ƏRZAQ TƏHLÜKƏSİZLİYİ İQTİSADİ SİYASƏTİN İSTİQAMƏTİ KİMİ

## 3.1 Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün dövlət mexanizminin təkmilləşdirilməsi

Müasir dövrdə ərzaq təhlükəsizliyinin tənzimlənməsi ölkədə əhalinin daha yüksək keyfiyyətə sahib olan və yetəri miqdarda qida ilə təmin olunması üçün ən stratejik və vacib mexanizmlərdən biridir. Bu səbəbdən, ərzaq təhlükəsizliyinin dövlət daxilində tənzimlənməsi üçün həmin dövlət tərəfindən effektiv və səmərəli tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin tənzimlənməsi məqsədi ilə bir sıra tədbirlər görülmüşdür. Belə ki, ölkədə ərzaq təhlükəsizliyi mexanizmini təkmilləşdirmək məqsədi ilə ərzaq kompleksinin dövlət tərəfindən modernləşdirilməsi həyata keçirilmişdir .

Ərzaq kompleksinin modernləşdirilməsi ölkədə dayanıqlı ərzaq təminatının təkmiləşdirilməsində böyük əhəmiyyət kəsb edir. Belə ki, müasir dövrdə dayanıqlı ərzaq təminatına keçidin ən əsas tələblərindən biri ölkə daxilində istehsal edilən ərzaq məhsullarının qorunması üçün effektiv və səmərəli mexanizmlərinin yaradılmasından ibarətdir. Buna görə də, yeni texnologiyaların əsasında ərzaq məhsullarının qorunması mexanizmini daha effektiv və səmərəli hala gətirmək böyük önəm kəsb edir.

Beləliklə, ölkədə istehsal edilən ərzaq məhsullarının qorunmasında və əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsində ərzaq kompleksinin böyük təsiri vardır və ona görə də, ölkədə mövcud olan ərzaq kompleksinin müasir texnologiyalar əsasında təkmilləşdirilməsi və onun ərzaq potensialının artırılması ərzaq təhlükəsizliyi mexanizminin təkmilləşdirilməsinin ən mühüm aspektlərindəndir.

Azərbaycan Respublikasında ərzaq kompleksinin modernləşdirilməsinin və inkişaf etdirilməsinin əsasını ölkədəki kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı üçün dayanıqlı inkişaf modelinin yaradılması təşkil edir. Buna görədə, Azərbaycan Respublikasında regionların inkişafına dair dövlət proqramlarının ən

asas məqsədlərindən biri də regionlarda müasir tələblərə cavab verən və dayanıqlı ərzaq komplekslərinin yaradılmasıdır. Bu məqsədlə, Azərbaycanın müxtəlif regionlarında ərzaq kompleksinin modernləşdirilməsini təmin etmək məqsədi ilə dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, kənd təsərrüfatı məhsullarının keyfiyyətini və həcmini artırmaq məqsədi ilə yeni texnologiyaların bu sahələrdə tədbiqi üçün dövlət tərəfindən xüsusi tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizminin təkmilləşdirilməsi məqsədi ilə ən ciddi dövlət tədbirlərindən biri Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (QTA) yaradılması olmuşdur. Bu agentliyin yaradılmasına qədər ərzaq təhlükəsizliyinin təmin olunması məqsədi kimi yaradılmış dövlət mexanizmi beynəlxalq səviyyədəki tələblərdən və mexanizmlərdən ciddi şəkildə fərqlənirdi. Belə ki, Azərbaycan Respublikasında daxili bazarda ərzaq təhlükəsizliyinin təmin olunması məqsədi kimi iki əsas dövlət qurumu fəaliyyət göstərirdi. Bir tərəfdən, ölkə daxilindəki ərzaq istehsalı prosesinin dövlət tərəfindən müəyyən edilmiş standartlara uyğunluğunu müəyyən edən dövlət qurumu Standardlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi olmuşdur (Musayev V., 2017:s.3). Qida Təhlükəsizliyi Agentliyi yaradılan müddətə qədər istehsal prosesinin sertifikatlaşdırılması və standardlara uyğunluğunu bu qurum həyata keçirmişdir. Digər tərəfdən, daxili bazarda mövcud olan ərzaq məhsullarının dövlət tərəfindən müəyyən edilmiş standardlara uyğunluğunu isə İqtisadiyyat Nazirliyi müəyyən etmişdir . Qida Təhlükəsizliyi Agentliyi yarandıqdan sonra bu qurumlara məxsus olan bir çox funksiya agentliyinin nəzarətinə keçmişdir. Burda əsas məqsəd, ölkə daxilindəki ümumi ərzaq emalı prosesinə və bazarına vahid bir qurum tərəfindən nəzarətin edilməsi təmin etmək və nəticədə, ərzaq təhlükəsizliyini mexanizminin daha effektiv və səmərəli şəkildə fəaliyyətinin həyata keçirmək olmuşdur.

Bundan əlavə, QTA yaranana qədər, daxili bazarda ərzaq təhlükəsizliyinin təmin olunması məqsədi kimi bir neçə əlavə dövlət qurumu fəaliyyət göstərmişdir. Daxili bazarda istehsal edilən və xaricdən ixrac edilən bitki və bitki məhsullarına nəzarəti bu ölkədə Dövlət Fitosanitar Nəzarəti Xidməti həyata keçirirdi. Bundan

əlavə, ölkə daxilindəki heyvan istehsalına və daxili bazarda mövcud olan heyvandarlıq məhsullarına nəzarəti isə Dövlət Baytarlıq Nəzarəti Xidməti həyata keçirirdi. Daxili bazarda yeyinti məhsullarına Səhiyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi yanında fəaliyyət göstərən Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Qorunması üzrə Dövlət Xidməti nəzarət etmişdir ("Strateji Yol Xeritesi", s.3). Bu qurumların fəaliyyəti onu göstərir ki, Qida Təhlükəsizliyi Agentliyi yaranana qədər ölkə daxilindəki ərzaq təhlükəsizliyi mexanizmi beynəlxalq standardlara cavab verməmişdi və həddindən artıq kompleks idi, çünki vahid bir qurum tərəfindən ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlər həyata keçirilməmişdir. Bu isə öz növbəsində, ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı məsələrdə düzgün və effektiv tədbirlərin görülməsində əngəllər yaratmışdır. Belə ki, bir qurum tərəfindən yaradılmış və həyata keçirilən standardlar digər qurumlar tərəfindən qəbul edilmiş standardlardan və tədbirlərdən fərqlənmişdir, çünki qurumlar arasında ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərdə koordinasiya və işbirliyi yüksək səviyyədə olmamışdır.

Beləliklə, Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi mexanizmi bu sahədə xüsusi agentliyin yaranana qədər Sovet İttifaqı dövründə hazırlanmış modelə əsasən fəaliyyət göstərmişdir, çünki qida təhlükəsizliyinə dair standardlar və fitosanitar normaların əksəriyyəti müasir tələblərə uyğun yaradılmamışdı. Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyini təmin olunması ilə məşğul olan bir neçə dövlət qurumunun mövcud olması da bu sahədə görülən tədbirlərin səmərəliyinə və effektivliyinə mənfi təsir göstərmişdir. Ən əsas problemlərdən biri isə ərzaq məhsulların ixracı və idxalı zamanı təftişlərin həyata keçirilməsi üçün müvafiq mexanizmin mövcud olmaması ilə əlaqədar idi. Buna əsas səbəb isə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün ümumi və vahid bir dövlət qurumunun mövcud olmamsı ilə əlaqədar idi.

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsindəki nəzarət mexanizmini təkmilləşdirmək və bu sahəyə nəzarət edən dövlət qurumlarının fəaliyyətindəki paralelliiyi aradan qaldırmaq səbəbi ilə 2017-ci ilin 10 fevral tarixində Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan

Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması nəzərdə tutulmuşdur (Musayev V., 2017:s.4). Bu fərmana əsasən 2018-ci il yanvarın 1-dən etibarən Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi fəaliyyətə başlamışdır. Qida Təhlükəsizliyi Agentliyi ölkə daxilində ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə aşağıdakı funksiyaları həyata keçirir:

- Qida Məhsullarının təhlükəsizliyinin təmin etmək
- Baytarlıq və fitosanitar nəzarətə aid normaları qəbul etmək və həyata keçirmək
- Ərzaq təhlükəsizliyi sahəsində fəaliyyət göstərən qurumları qeydiyyata almaq və onlara nəzarət etmək
- Fitosanitar və baytarlıq sertifikatlarını vermək
- Qida istehsalı zəncirinin bütün mərhələlərinə nəzarət etmək
- İstehlakçıların hüquqlarının müdafiəsini təmin etmək

Bundan əlavə, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətini təchiz etmək məqsədi ilə Qida Təhlükəsizliyi Komissiyası yaradılmışdır. Komissiya toplamda 8 üzvdən ibarət olmuşdur. Bu komissiyanın sədri Azərbaycan Respublikasının Baş Nazirinin müavini Əli Əhmədov və komissiyanın digər üzvləri isə Azərbaycan Respublikası İqtisadiyyat Naziri, Maliyyə Naziri, Səhiyyə Naziri, Kənd Təsərrüfatı Naziri, Standardlaşdırma, Əmlak Məsələləri Dövlət Komitəsinin Sədri, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Sədri və Qida Təhlükəsizliyi Agentliyinin Sədrindən ibarət olmuşdur (AR Qida Təhlükəsizliyi Sistemi, 2017). Bu komissiyanın əsas məqsədi isə Qida Təhlükəsizliyi Əsasnaməsinin layihəsi və bu agentliyin strukturu və fəaliyyət dairəsi barədə təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməkdən ibarət idi. Komissiyanın fəaliyyəti isə Qida Təhlükəsizliyi Agentliyi fəaliyyətə başlayan gündən etibarən dayanmışdır.

Qida Təhlükəsizliyi Agentliyinin əsası qoyulan zaman fəaliyyətə başlaması ilə ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün vahid dövlət mexanizminin yaradılması və nəzarət sistemində mövcud olan qeyri-səmərəliliyin və pərakəndəliyin aradan qalxması ilə nəticələnmişdir. Hazırda, daxildə istehsal edilən və idxal edilən ərzaq məhsullarına nəzarəti və bu məhsulların dövlət

tərəfindən müəyyən edilmiş standarlara uyğunluğunu vahid bir qurum, Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir.

Bundan əlavə, Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin stratejik aspektlərindən biri olduğu üçün bu sahədə inkişafın həyata keçirilməsi üçün bir neçə strateji hədəf mövcuddur. Ölkədə ərzaq təhlükəsizliyinin dayanıqlılığını artırmaq məqsədi ilə görüləcək ən mühüm dövlət tədbirlərindən biri də bu sahədə məlumat və monitorinq sisteminin qurulması ilə əlaqədardır. Belə ki, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fəaliyyət göstərən dövlət qurumları arasındakı koordinasiyanı artırmaq, vahid nəzarət sistemini yaratmaq və fövqəladə vəziyyətlərdə bu sahədə çevik və effektiv tədbirlərin görülməsini təmin etmək məqsədi ilə daimi surətdə fəaliyyət göstərən Ərzaq Təhlükəsizliyi Komissiyasının yaradılması nəzərdə tutulur. Azərbaycan Respublikası Prezidentinin təsdiqlənmiş fərmanı ilə Azərbaycan Respubliikası Stırateji Yol Xəritəsinə əsasən bu komissiyanın əsas fəaliyyəti ölkədə və beynəlxalq səviyyədə ərzaq təhlükəsizliyi ilə bağlı dəyişikləri müzakirə etmək və müvafiq tədbirlərin görülməsi ilə bağlı Qida Təhlükəsizliyi Agentliyinə və digər dövlət qurumlarına müvafiq göstərişlər verməkdən ibarətdir (AR Qida Təhlükəsizliyi Sistemi, 2017:s.52). Belə bir komissiyanın yaradılması ərzaq təhlükəsizliyinin təmin edilməsindəki dövlət nəzarətinin və fəaliyyətinin artması və daha effektiv hal alması deməkdir.

## 3.2 Kənd Təsərrüfatı istehsalının səviyyəsinin artırlmasının prioritet istiqamətləri

Kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinin artırılmasında ən əsas amillər regionlarda kənd təsərrüfatı fəaliyyətinin intensivləşdirilməsi, suvarma sisteminin təkmiləşdirilməsi, əkinə yararlı torpaq sahəsinin həcminin və potensialının çoxaldılması, su və torpaq ehityatlarından səmərəli istifadənin inkişaf etdirilməsi, regionlarda maddi və texniki bazanın yaxşılaşdırılması kimi sahələrdə müvafiq tədbirlərin görülməsindən ibarətdir.

Ərzaq təhlükəsizliyi riskinin azaldılması və keyfiyyətli qida istehsalının artırılması baxımından ölkənin kənd təsərrüfatı fəaliyyəti mühüm önəm kəsb edir. Azərbaycan Respublikasının sadəcə 2005 və 2015-ci illər arasında ölkə daxilində istehsal edilən kənd təsərrüfatı məmulatlarının həcmi 3.1 dəfə artmışdır . Xüsusilə, həmin zamanda, hevandarlıq məhsullarının istehsalı zamanı 3.4 dəfə artım qeydə alınmışdır.Bundan əlavə, 2010 və 2015-ci iller ərzində, kənd təsərrüfatı məhsullarının ÜDM-də payı 0.7% artmış və 6.2% təşkil etmişdir ("Strateji Yol Xəritəsi",2016:s. 11).

2020-ci ilədək Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalında və emalında nəzərdə tutulan dəyişikliklər aşağıdakılardır ("Strateji Yol Xəritəsi ",2016:s səh, 49):

- Ət istehsalının 20% artırılması
- Süd istehsalının 30% artırılması
- Kənd təsərrüfatı məhsulları istehsal edən müəssisələr və şəxslər tərəfindən mineral gübrələrdən istifadə səviyyəsinin 25% azaldılması
- Kənd təsərrüfatı məhsullarının istehsalı zamanı istifadə edilən toxumların 90%-nin sertifikatlaşdırılması
- Kənd təsərrüfatı məhsullarının istehsalı zamanı istifadə edilən avadanlıqların sayının 20% artırılması
- Kənd təsərrüfatı sahəsi üzrə təhsil alan tələbələrin sayının 20% artırılması
- Heyvanların müayinəsi ilə məşğul olan baytarların sayının 30% artırılması

Bu kimi prioritet hədəflərin əsas məqsədi ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının həcminin və keyfiyyətinin artırılması və daxili bazarın yüksək keyfiyyətə sahib olan qida məhsulları ilə təmin edilməsidir. Bundan əlavə, bu kimi tədbirlərin görülməsində digər məqsəd ölkədə qida ehtiyatının artırılması və ərzaq təhlükəsizliyinin inkişaf etdirilməsidir.

Hazırda, regionlarda adam başına düşən əkinə yararlı torpaq sahəsinin məhdud olması, ölkədə kənd təsərrüfatı məmulatlarının istehsalı sahəsindəki ən ciddi əngəllərdən biridir. Buna görə də, kiçik həcmdə olan əkinə yararlı torpaq sahələrinin birləşdirilərək iri həcmli təsərrüfatlarının yaradılması, ölkədə ərzaq

məhsullarının səmərəli şəkildə istehsal edilməsində və mövcud olan əngəllərin aradan qalxdırılmasında ən vacib və effektiv imkanlardan biridir. Belə ki, iri həcmli təsərrüfatlar ərzaq məhsullarının istehsal prosesinin intensivləşməsində və yeni vəsaitlərin cəlb edilməsində daima üstünlüyə sahib olmuşdurlar. Buna səbəb isə, kiçik həcmli əkinə yararlı torpaq sahələrində yeni və irihəcmli investisiyaların cəlb edildikdə və müasir texnologiyaların tədbiq edildikdə bu sahələrin istehsal potensialında çox az müsbət inkişaf müşahidə edilir, çünki kiçik həcmli əkinə yararlı torpaq sahələrinin istehsal potensialı məhduddur. Buna görə də, kiçik həcmli əkinə yararlı torpaq sahələrinə sahib olan kəndlilərin bu məsələ barədə məlumatlandırılması və maddi və texniki baza vasitələri ilə bu istiqamətdə aktiv iştirak etməsi ölkədə ərzaq istehsalının həcminin və keyfiyyətinin artmasında ən zəruri amillərdəndir (Acheson D., 2011: s.58). Bu məqsədlə, dövlət tərəfindən məsləhət xarakterli xidmətlərin təklif edilməsi və nəticədə, kəndlilərdə iri təsərrüfat sahələrinin yaranmasında maraq yaradılması vacibdir.

Bundan əlavə, regionlarda kənd təsərrüfatı istehsalının artırılması üçün ən əsas istiqamətlərdən biri də kəndlilərin aqroservis xidməti verən müəssisələrlə təmin edilməsindən ibarətdir. Bu kimi müəssisələr kəndlilərə ərzaq məhsulların emalı zamanı istifadə edilən texnikaların təmir edilməsi, heyvanların müayinə edilməsi, dənli bitkilərin və meyvələrin istehsalı üçün lazımi preparatların satılması və istehsal prosesinin səmərəliliyinin artırılması üçün xidmətlərin verilməsində mühüm rol oynayarlar. Belə müəssisələr dövlət büdcəsi vasitəsilə maliyyəşərək regionlarda kəndlilərin maariflənməsinə və nəticədə, ərzaq istehsalı prosesinin daha da intensivləşməsinə şərait yaradacaqdır.

Bundan əlavə, regionlarda istehsal potensialına əngəl törədən digər amillərdən biri soyuducu anbarların qıtlığı ilə əlaqədardır. Belə ki, istehsal edilən məhsulların soyuducu anbarlarda saxlanılması üçün mövcud şərait məhduddur, çünki regionlar yetəri infrastruktur ilə təchniz edilməyib . İstehsal edilən məhsulu uzun müddət soyuducuda saxlamaq üçün yüksək keyfiyyətə sahib texniki bazanın yaradılması vacibdir. Belə ki, kənd təsərrüfatı məhsullarının böyük qismi normal şəraitdə qısa müddətdə və keyfiyyəti korlanmadan saxlanıla bilər. Bu məhsulları

uzun müddətdə saxlama imkanı məhdud olduğundan meyvə və tərəvəzlər yay mövsümündə ucuz və bol miqdarda olur, lakin digər mövsümlərdə baha və az miqdarda bazara çıxarılır. Buna görə də, ölkədə əhalinin il ərzində yüksək keyfiyyətə sahib kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi üçün soyuducu anbarların sayının və potensialının artırılması böyük əhəmiyyət kəsb edir.

Əkin sahələrinin həcminin qaldırılması və müvafıq strukturunun tədbiq olunması, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində böyük önəm kəsb edir. Bundan əlavə, kənd təsərrüfatı istehsalının artırılması sadəcə əkin sahələrinin həcminin artırılması, istehsal prosesinin intensivləşməsi, soyuducu anbarların tikintisi, suvarma sisteminin inkişaf etdirilməsi və bu kimi tədbirlərdən asılı deyil. Kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinə təsir edən ən vacib amillərdən biridə bu sahənin ölkə daxilindəki iqtisadiyyatın digər sahələri ilə qarşılıqlı əlaqəsindən də asılıdır. Buna görə də, Azərbaycan Respublikasında kənd təsərrüfatı istehsalının həcminin artırılması üçün ən əsas amillərdən biri bu sahənin iqtisadiyyatın sənaye sektoru ilə olan əlaqəsindən asılıdır. Kənd təsərrüfatının təkrar istehsalı üçün ən vacib xarici amil sənayedir. Belə ki, regionlarda kənd təsərrüfatı sahələrinin lazımi maşın, avadanlıqlar və kimyəvi preparatlarla təmin edilməsində sənayenin böyük rolu vardır. Bu sahənin maddi və texniki bazasını sənaye sahəsindəki istehsal müəyyən edir, hansıki regionlarda kənd təsərrüfatı məhsullarının istehsalına birbaşa təsir edir. Belə ki, kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq kimi sahələrinin istehsal potensialı sənayenin maşınqayırma və kimya sahələrindən asılıdır . Bu səbəbdən, ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün iqtisadiyyatın bu sahəsinin sənaye ilə olan əlaqəsinin artırılması vacib amillərdən biridir. Kənd təsərrüfatı eyni zamanda sənayenin emaledici sahəsi ilə də sıx əlaqələnir. Belə ki, kənd təsərrüfatında istehsal edilən məhsullar emaledici sənayedə xammal kimi istifade edilir . Bu səbəbdən, iqtisadiyyatın müstəqil və vahid sahəsi olan kənd təsərrüfatı günümüzdə sənaye sahəsi vasitəsi ilə özünün istehsal potensialını artırır. Kənd təsərrüfatı və sənayenın inteqrasiyası və bu sahələr arasındakı kooperasiyanın artırılması kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinin artırılması üçün prioritet istiqamətlərdən biridir.

## 3.3 Ölkənin ərzaq resursları ilə təminatının inkişaf prespektivləri

Ölkənin ərzaq ehtiyatlaırı ilə təminatını təkmilləşdirmək üçün ən mühüm aspektlərdən biri ölkənin bu sahədə institusional potensialını inkişaf etdirməkdən ibarətdir. Belə ki, institusional potensial ölkədə kənd təsərrüfatı sahəsindəki problemlərin müəyyən edilməsində və bu problemlərin səmərəli və effektiv şəkildə həll edilməsində mühüm rol oynayır.

Azərbaycan Respublikasında kənd təsərrüfatı sahəsinin institusional potensialını artırmağın ən vacib yollarından biri vahid məlumat sisteminin yaradılması ilə əlaqədardır. Belə ki, ölkədə ərzaq istehsalı prosesinin analiz edilməsi, bu sahədəki problemlərin müəyyən edilməsi, və həlli üçün çevik və effektiv qərarların verilməsində vahid informasiya sisteminin yaradılması ən vacib şərtlərdən biridir . Vahid informasiya sisteminin olması bu sahədə mövcud olan və gələcəkdə yarana biləcək potensial problemlərin müəyyən edilməsində və həll edilməsində mühüm rol oynayır.

Hazırda, ölkədə ərzaq təhlükəsizliyi ilə bağlı məlumatlar müxtəlif dövlət qurumlarında mövcuddur, lakin vahid informasiya sistemi mövcud olmadığından bu məlumatlara əlyetərlilik və istifadə prosesi səmərəli deyildir. Bir tərəfdən, Dövlət Statistika Komitəsində ölkədəki ərzaq istehsalı, satış həcmi, və bazar qiyməti ilə bağlı məlumat bazası mövcuddur. Digər tərəfdən, hava, su, və torpaq şəraiti ilə bağlı məlumat bazası isə Ekalogiya və Təbii Sərvətlər Nazirliyində mövcuddur. Bu səbəbdən, ərzaq təhlükəsizliyi ilə bağlı məlumatların vahid informasiya bazasında toplanmasına ciddi ehtiyac vardır, çünki məlumatların bir bazada toplanması bu sahə ilə bağlı analizlərin daha effektiv və çevik şəkildə həyata keçirilməsinə və nəticədə, müəyyən problemlərin həll edilməsində mühüm rol oynayır.

Digər institusional potensialın inkişaf istiqaməti isə əhalinin ərzağa əlyetərliliyini artırmaq məqsədi üçün ərzaq ehtiyatının formalaşdırılması ilə əlaqədardır. Belə ki, ölkədə ərzaq istehsalının yüksək inkişafına əngəl olan ən vacib amillərdən biri istehsal edilən ərzaq məhsullarının saxlanılması və qorunması üçün lazımı olan infrastrukturun həm say həmdə potensial cəhətdən məhdud

olmasıdır . Ölkədə kənd təsərrüfatı məhsullarının saxlanılması və il ərzində istifadə edilməsi üçün mövcud olan infrastrukturun təkmilləşdirilməsi və onların sayının artırılması, istehsal edilən bu məhsulların daha effektiv və səmərəli şəkildə qorunmasına və nəticədə, əhalinin ərzağa olan tələbatının il ərzində təmin edilməsinə şərait yaradacaqdır.

Digər bir institusional potensial isə iri həcmli aqroparkların yaradılması ilə əlaqədardır. Belə ki, aqroparklar kənd təsərrüfatı məhsullarının istehsal prosesinin intensivləşməsinə və bu məhsulların daşınması və satışı kimi məsələlərin çevik və effektiv şəkildə təşkil olunmasına mühit yaradır . Ölkədə kəndllilərin qarşılaşdığı ən ciddi çətinliklərdən biri onların istehsal etdiyi kənd təsərrüfatı məhsullarının bazara səmərəli və qısa müddətdə çıxışının mümkün olmaması ilə əlaqədardır. Bu isə bir tərəfdən istehsalçı fermerlərin zərərlə üzləşməsinə səbəb olur və digər tərəfdən isə, əhalinin ərzağa olan əlyetərliyinə mənfi təsir göstərir.

Bundan əlavə, istehsalçı fermerlər çox zaman öz məhsullarını müəyyən vasitəçilər vasitəsi ilə daxili bazara çıxarır və buda öz növbəsində daxili bazarda ərzaq məhsullarının qiymətinin suni artımına gətirib çıxarır, çünki vasitəçilər çox zaman yaranmış bu vəziyyətdən istifadə edərək məhsulun qiymətini qaldırır . Belə vəziyyətdə, kənd təsərrüfatı istehsal edən şəxslərin gəlir səviyyəsi aşağı düşür və buda, fermerlərdə təkrar istehsala qarşı marağını ciddi şəkildə aşağı həddə düşürür. Buna üçün də, daxildə bazar idxaldan asılı vəziyyətə düşür, çünki regionlarda ərzaq məhsullarının istehsalına olan maraq ciddi şəkildə aşağı düşür. Ümumiyyətcə, Azərbaycan Respublikasında ərzaq istehsalına əngəl törədən ən ciddi amil, istehsal edilən məhsulların daxili və xarici bazarlara çıxarmaq, onların daşınmasını və saxlanmasını təşkil etmək kimi proseslərin effektiv və səmərəli olmaması ilə əlaqədardır.

Bu problemlərin aradan qaldırılması və ərzaq istehsalının artırılması üçün yeni və müasir tələblərə uyğun aqroparkların yaradılmasına ciddi ehtiyac vardır. Belə ki, müasir dövrdə aqroparklar kənd təsərrüfatı məhsullarının daxili bazara çıxarılması, daşınması, və saxlanılması kimi bir neçə prosesi mərkəzləşmiş vahid ərazidə həyata keçirir .Buna görə də, kənd təsərrüfatı istehsal edən şəxslər

məhsulların daşınması və logistikası kimi məsələri daha rahat və səmərəli şəkildə həyata keçirir və nəticədə, ölkədə həm ərzaq məhsullarının qiyməti aşağı düşür, həmdə bu işlə məşğul olan fermerlərdə təkrar istehsala maraq yaranır.

Aqroparklarda yaradılan şərait eyni zamanda kənd təsərrüfatı məhsullarının istehsalı ilə çalışan şəxslərin ifrastruktur xərclərini də aşağı salır. Belə ki, aqroparklar sənaye və kənd təsərrüfatının inteqrasiyası üçün səciyyəvi şərait yaradır. Aqroparklar regionlarda istehsal ilə məşğul olan fermerləri kimya və maşınqayırma sənayesi ilə əlaqələndirir. Belə ki, aqroparklar regionlarda istifadə edilən texnikaların təmiri və bərpası kimi xidmətləri təşkil edir və heyvandarlıq, meyvəçilik və bitkiçilik sahələri üçün müxtəlif kimyəvi preparatların satışını təmin edir. Bu səbəbdən, fermerlərin ərzaq məhsullarını istehsal etməsinə münbit şərait yaradır

Aqroparklar kənd təsərrüfatı məhsullarını xammal kimi istifadə edən emaledici sənaye sahələrinində xammala olan tələbatının təmin edilməsində mühüm rol oynayır. Belə ki, emaledici sənaye müəssisələri aqroparklar vasitəsilə xammala olan tələbatını daha sərfəli və daha qısa müddətə təmin edir və nəticədə, istehsal prosesini intensivləşdirir . Digər tərəfdən, aqroparklar sənaye müəssisələrinə kənd təsərrüfatının inkişafına təsir etməyə şərait yaradır. Belə ki, sənaye müəssisələri aqroparklar vasitəsilə fermerləri texniki maşınlar və avadanlıqlar, kimyəvi məhsullar, gübrə və digər bu kimi sənaye məhsulları ilə təmin edir. Bu səbəbdən, ölkədə kənd təsərrüfatı və sənaye sahələrinin inteqrasiyası və nəticədə, hər iki sahədə istehsal potensialının artması baxımından aqroparkların yaradılması zəruri haldır.

Aqroparkların yarandığı və fəaliyyət göstəriyi ilk ölkə Niderland hesab edilir. Bu ölkədə hazırda fəaliyyət göstərən dörd aqropark mövcuddur, hansılarki sənaye və kənd təsərrüfatının inteqrasiyası üçün səciyyəvi şərait yaradırlar: Aqriport A7, Zuid Groningen, Aqropark Bergerden və Biopark Ternenzen . Aqriport A7 tərəvəzlərin daxili bazara çıxışını təmin etmək məqsədi ilə bu məhsulların daşınması və loqistikası kimi xidmətlərini həyata keçirən müasir tələblərə uyğun arqoparkdır. Ətraf mühitin qorunması məqsədi ilə aqroparkda mövcud olan

istixanaların enerji təminatı yeni yaradılmış geotermal enerji şirkəti vasitəsilə təmin edilir (Wandolo M.A.,2016:s.43).

Azərbaycan Respublikasında Niderlandda mövcud olan aqropark modelləri nəzərə alınaraq bir neçə aqropark yaradımışdır. Bunların ən əsası isə Bakı Aqroparkıdır hansıki Niderlandda mövcud olan Aqriport A7 aqropark modeli əsasında yaradılmışdır. Bakı Aqroparkı Bakının 45 km şərqində yerləşən Zirə qəsəbəsində salınmışdır. Aqriport A7 kimi bu aqropark da paytaxt şəhərə yaxın bir yerdə salınmışdır ki, şəhər əhalisinin ərzaq məhsullarına olan əlyetərliliyini artırsın və daşınma ilə əlaqədər əlavə xərcləri aradan qaldırsın. Bundan əlavə, Aqriport A7 kimi Bakı Aqroparkıda tərəvəz məhsullarının yetişdirilməsi, saxlanılması və bazara çatdırılması kimi fəaliyyətləri mərkəzləşmiş vahid bir ərazidə birləşdirmişdir. Aqriport A7 əsasında Bakı Aqroparkında müasir texnologiyalara cavab verən və təbiətə mənfi təsir etməyən istixanalar yaradılmışdır. Lakin, Aqriport A7 dən fərqli olaraq Bakı Aqroparkının mövcud potensialı məhduddur, buna səbəb isə Aqriport A7 ilə müqayisədə bu aqroparka məxsus olan ərazi sahəsi çox qısıtlıdır. Beləki, Bakı Aqroparkı 10 hektarlıq bir ərazini əhatə edir və daha çox, pomidor istehsalı üzrə ixtisaslaşmışdır.

Azərbaycan Respublikasında Niderlandda mövcud olan aqropark modelləri əsasında daha Xaçmaz rayonunda daha bir aqropark yaradılmışdır.Yalama Aqroparkı Azərbaycan Respublikasında yaradılmış ilk aqroparkdır. Bu aqropark, 2016-cı ildən Xaçmaz rayonunda Yalama qəsəbəsində fəaliyyət göstərir. Yalama aqroparkının ixtisaslaşdığı kənd təsərrüfatı sahəsi südçülük və maldarlıqdır. Aqropark 523 hektar ərazini əhatə edir və 3 min baş iribuynuzlu mal-qaranı yetişdirmək potensialı vardır. Bundan əlavə, mal-qaranın yemə olan tələbatını təmin etmək məqsədilə bu aqroparka Dövlət Ehtiyat fondu tərəfindən 956 hektar əkin sahəsi ayrılıb. 2017-ci il üzrə aqroparkın əkinə yararlı torpaq sahəsində əsasən arpa, qarğıdalı və yonca kimi bitkilər əkilmiş və aqroparkın yem anbarlarında toplanmışdır. Yalama Aqroparkının günlük ət istehsalı ortalama 16 tondur və süd istehsalı potensialıda ortalama 50 tondur (Yusifli E., 2018:s.13).

Azərbaycan Respublikasının qərb bölgəsində ərzaq istehsalının həcmini və potensialını artırmaq məqsədilə Aqriport A7 modeli əsasında daha bir aqropark yaradılmışdır. Şəmkir Aqroparkı 2014-cü ildə Azərbaycanda kənd təsərrüfatı sahəsində əsaslı islahatların həyata keçirilməsi və bu sahənin istehsal potensialının artırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin göstərişinə əsasən tikilməyə başlanmışdır. Bu aqropark 2017-ci ildən ölkədə fəaliyyət göstərir və toplamda 604 hektar ərazini əhatə edir. Şəmkir Aqroparkının ixtisaslaşdığı sahə meyvəçilikdir. Bu aqroparkın yaradılmasında əsas məqsədr Azərbaycanın qərb bölgəsində kənd təsərrüfatının əsas sahələrindən olan meyvəçiliyi daha da inkişaf etdirməkdir. Aqroparkın logistik mərkəzi mövcuddur hansının ki tutumu toplam 24 min tondur. Aqropark ən müasir texnalogiyaların əsasında yaradılmışdır. Beləki, Şəmkir Aqroparkında laboratoriya xidməti mövcuddur hansıki Shim Lab Teknik-Des1 kimi cihazlarla təmin edilmişdir. Bu cihazların vasitəsilə bölgədə istehsal edilən meyvə məhsullarının tərkibi analiz edilir və onlarda turşuluğun, nəmliliyin, nişastanın və bu kimi maddələrin səviyyəsini müəyyən edir. Bundan əlavə, aqroparkda avtomatlaşdırılmış çeşidləmə sistemi mövcuddur, hansıki 50 ton meyvə və tərəvəzi onların ölçülərinə və keyfiyyətinə 1 saat müddətində çeşidləyir. Eyni zamanda, ümumi tutum həcmi 24 min ton olan 70 ədəd soyuducu kameralar mövcuddur aqroparkda. Bu soyuducular məhsulların uzun müddətdə qorunmasına və saxlanmasına şərait yaradır. Aqroparkın yaradılması nəticəsində, Azərbaycan Respublikasının qərb bölgəsində meyvəçiliyin inkişafına müsbət təsir göstərir, çünki laboratoriya, çeşidləmə, və logistika kimi xidmətlər meyvəçiliklə məşğul olan bağbanların daha çox istehsala fokuslanmasınə və nəticədə, istehsalın artımına gətirib cixarır.

Aqroparkların yaradılması və fəaliyyəti ərzaq məhsullarının istehsalı prosesini intensivləşdirmək və daxili və xarici bazarın daha qısa müddətdə və daha səmərəli şəkildə ərzaq məhsulları ilə təmin edilməsində mühüm rol oynayır. Aqroparklar lisenziya əsasında fəaliyyət göstərən ənənəvi taxıl anbarlarında və ərzaq soyuducularından fərqlənir. Hazırda, ölkədə regionlarda fermerlərin istehsal etdikləri kənd təsərrüfatı məhsullarını saxlamaq və qorumaq məqsədi ilə xüsusi

anbarlardan istifadə edirlər və bunun üçün anbarlara müəyyən qəbzlər verirlər. Lakin, bu modelin ən əsas problemlərindən biri fermerlərə baha başa gəlməsi və eyni zamanda, ərzaqların daşınması və daxili bazara çıxarılması kimi xidmətləri təmin etməməsi ilə əlaqədardır Aqroparklar isə ərzaq məhsullarının saxlanılması, bazara daşınması, və satışı kimi məsələri vahid və mərkəzləşdirilmiş ərazidə birləşdirir və nəticədə, fermerlərə və alıcılara daha sərfəli və rahat şəraitdə ərzaq məhsullarının satışı və alışı kimi məsələləri həyata keçirməyə şərait yaradır. Aqroparkların yaradılması və tədbiqi müasir təcrübəyə əsaslanır. Burda məqsəd kənd təsərrüfatı istehsalını artırmaq və bu sahənin sənaye ilə inteqrasiyasını təmin etməkdən ibarətdir (Hüseynov M.C., Əmrahov V.T., Qasımov A.M., və Nərimanov N.A , 2013: s.37).

Son bir neçə il ərzində, ərzaq təhlükəsizliyini təmin etmək məqsədi ilə bir çox ölkə, xüsusilə inkişaf etməkdə üzrə olan ölkələr, özlərinin ərzaq təhlükəsizliyi sistemində ciddi reformlar həyata keçirmişdir. Misal üçün, Amerikada, alıcıların balıq və tərəvəz məhsullarına olan tələbatı artmış son illərdə artmış və, nəticədə, bu kimi məhsulların səbəb olduğu problemlərin aradan qaldırılması üçün yeni bir dövlət qurumu, "National Marine Fisheries Service" (Milli Dəniz Balıqçılığı Xidməti) yaradılmışdır (Fein S. B., Lando A.D., Levy A.S., Teisl M.F., Noblet C. S., 2011: s.1516).

2002-2010-cu illər arasında, Amerikada balıq məhsullarının istehsalı 50%-dən çox artmışdır . Bununda nəticəsində, balıqla əlaqələnən təhlükəsizlik problemlərinin həcmi və səviyyəsi artmışdır. Zavodlarda istehsal edilmiş balıqların insan sağlamlığına təhlükə törətməsinə səbəb əsasən istehsal prosesində istifadə edilən maddələrlə əlaqəlidir. Balıqları istehsalı prosesində istifadə edilən müxtəlif növ vaksinlər, yemlər, və antibiotiklərin qalıqları ərzaq təhlükəsizliyi riskini artırır və nəticədə insan sağlamlığına təhlükə törətmə ehtimalını artırır .Digər tərəfdən, dənizdə tutulmuş balıqlarda da həmcinin ərzaq təhlükəsizliyi riski vardır,çünki çirklənmə balıqlarının müxtəlif maddələrə məruz qalmasına səbəb olur, hansıkı həmin balıqların keyfiyyətinə və sağlamlığına mənfi təsir göstərir(NMFS,. 2010: s. 18).

Ərzaqların təhlükəsizliyini təmin edəcək daxili nəzarət mexanizmi bir neçə ölkədə effektiv şəkildə həyata keçirilmir. Buna səbəb, bu kimi tədbirlərin ticarətin inkişafina əngəl törətməsi və ərzaqların bazar qiymətinin qalxmasına səbəb olmasıdır. Buna baxmayaraq, inkişaf etməkdə olan ölkələr daha çox qida təhlükəsizliyi standardları və proqramları qəbul edir və həyata keçirir. Burda məqsəd beynəlxalq ərzaq bazarına giriş əldə etmək və müvəffəqiyyətlə fəaliyyət göstərməkdir .

Ərzaq təhlükəsizliyini təmin etmək üçün Amerikada bir neçə federal agentliklər ölkə daxilində istehsal edilən və xaricdən import edilən mallara ciddi nəzarət edirlər. Amerikada qida təhlükəsizliyini müəyyən edən 4 əsas qurum vardır (Buzby J.C., Unnevehr B.J. , 2018:s.2):

- Qida Təhlükəsizliyi və Yoxlama Xidməti Agentliyi
- Kənd Təsərrüfatı Departamenti
- Ərzaq və Dərman Administrasiyası
- Ətraf Mühitin Mühafizəsi Agentliyi

Bu kimi dövlət qurumları aktiv şəkildə ölkə daxilində satılan ərzaq məhsullarını analiz edir və onların təhlükəsizlik riskini müəyyən edir. Buna misal olaraq, Ərzaq və Dərman Administrasiyası ölkəyə daxil olan bütün ərzaq məhsullarını təftiş edir və pestisid qalıqlarının olub və ya olmamasını test edir. Digər tərəfdən, Qida Təhlükəsizliyi və Yoxlama Xidməti Agentliyi isə ölkə daxilindəki ət məhsullarını təftiş edir və ərzaq məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin fəaliyyətlərinə nəzarət edir . Burda məqsəd, istehsal prosesinin sanitariya qaydalarına uyğun şəkildə aparılmasını təmin etməkdir.

Həyata keçirilən ərzaq  təhlükəsizliyi tədbirinə və qəbul olunmuş beynəlxalq standardlara baxmayaraq, ərzağın səbəb olduğu xəstəliklərin həcmi artmaqda davam edir. Buna əsas səbəb isə ərzaq istəhsalı prosesindəki sanitariya şəraitinin yüksəks standardlara cavab verməməsi, ərzağın lazımı temperetur səviyyəsində saxlanılmaması, istehsal prosesində köhnə ləvazimatların istifadəsi, və keyfiyyəti az olan xammal məmulatlarının istifadəsidir .

Həyata keçirilmiş tədqiqatların nəticəsinə görə ərzağın səbəb olduğu 250-dən çox müxtəlif növ xəstəlik mövcuddur. Sadəcə 2004-cu ildə, Amerikada qidanın səbəb olduğu xəstəliklərin sayı 76 milyondur, hansıkı 5 min insanın ölümü ilə nəticələnmişdir. Sadəcə İngiltərədə, 2010-cu ildə qidadan zəhərlənənlərin sayı 1 milyondan çox olmuşdur, hansıkı İngiltərə hökumətinə $1.5 milyon zərər vurmuşdur (CDC , "*International Food Safety Consultancy",2010*) .

Ərzağın səbəb olduğu xəstəliklər inkişaf etmək üzrə olan ölkələr üçün xüsusi təhlükədir, çünki bu ölkələrdəki istəhsal prosesi inkişaf etmiş ölkələrdəkinə nəzərən daha aşağı səviyyədədir. Günümüzdə, inkişaf edən qida təhlükəsizliyi tədbirlərinə və proqramlarına baxmayaraq, hələdə ərzaq təhlükəsizliyi riski mövcuddur. Ərzaq təhlükəsizliyi riski Azərbaycanda da mövcuddur Buna səbəb isə aşağıdakılardır:

- Effektiv ərzaq təhlükəsizliyi sisteminin və standardlarının olmaması
- Ərzaq təhlükəsizliyi standardlarını həyata keçirəcək və ona nəzarət edəcək dövlət qurumlarının olmaması

İnkişaf etməkdə olan ölkələrdə kasıblıq səviyyəsinin yüksək olması, əhalinin səviyyəsinin surətlə artması, və kənd yerlərindəki əhalinin insanlarla dolu olan şəhərlərə miqrasiyası, ölkə daxilində ərzaq təhlükəsizliyi ilə əlaqədar tədbirlərin görülməsinə əngəl törədən digər amillərdəndir.

Qərbi Avropa ölkələri üçündə ərzaq təhlükəsizliyinin təmin olunması xüsusi önəm kəsb edir.Norveç və ona yaxın olan ölkələrdə, qidanın səbəb olduğu xəstəliklərin ümumi sayı və onun ölkə iqtisadiyyatına vurduğu zərər görülən ciddi tədbirlərə baxmayaraq hələdə artmaqdadır. Sadəcə 2011- ci ildə, Avropa İttifaqında, qeydiyyata alınan ərzağın səbəb olduğu xəstəliklərin sayı 69553 nəfərdir, hansıki 93 nəfərin ölümü ilə nəticələnmişdir.(Langsrud S.,Granum E.2013:s.15).

Ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə Norveç höküməti xüsusi müşahidə və nəzarət proqramı hazırlamışdır. Hazırda, bu proqram mal-qaranın səbəb olduğu "Salmonella" xəstəliyinin qarşısını müvəffəqiyyətlə alır. Heyvanların istehsal etdiyi məhsulların "Salmonella" kimi xəstəliklərdən qoruyan bu proqram

Avropa İttifaqi Komissiyası tərəfindən qəbul edilmiş və Avropa İttifaqı daxilində proqramın tətbiqi üçün müvafiq tədbirlər görülmüşdür. Bu proqramın əsas xüsusiyyəti istehsal edilən hər bir ərzağın dövlət tərəfindən təsdiqlənməsi və ərzağın istehsal edildiyi müəssisə, onun heyvanları, və istifadə etdiyi qidalarla bağlı ciddi təftişin aparılmasından ibarətdir. Belə bir proqramın Azərbaycanda da keçirilməsinə ehtiyac vardır, çünki Salmonella xəstəliyi heyvanlar arasında yayqın ola bir xəstəlikdir, hansıki ət və ət məhsulları istehsalına ciddi təsir göstərmək potensialına sahibdir.

Baxmayaraq ki, bazar iqtisadiyyatı şirkətləri ərzaq təhlükəsizliyi ilə əlaqədar standardların qəbul edilməsinə yönləndirir, bu kimi proqramların həyata keçirilməsində bir çox şirkət maraqlı deyildir. Buna əsas səbəb isə ərzaq təhlükəsizliyi proqramları şirkətlərdən əlavə maliyyə dəstəyi və işçi qüvvəsi tələb edir, hansıkı istehsalat prosesinin səmərəliliyini azaldır və bazardakı rəqabət üstünlüyünü mənfi təsir göstərir.

Buna görə də dövlət tərəfindən ərzaq təhlükəsizliyinin təmin olunamsına nəzarət vacibdir. İnkisaf etmiş ölkələrin bir çoxunda ərzaq təhlükəsizliyini təmin edən nəzarət agentlikləri mövcuddur, hansılarkı aşağıdakı funksiyaları həyata keçirirlər (Wandolo M.A , 2016:s.5):

- Risk analizindən istifadə edərək ərzaq təhlükəsizliyi ilə əlaqədar nizamlamalar yaratmaq
- Bazardakı müəssisələri ərzaq təhlükəsizliyi ilə əlaqədar lazımı informasiya ilə təmin etmək
- Ərzaq istehsalı ilə çalışan müəssisələri təftiş etmək
- Ölkə ərazisinə daxil olan məhsulların qida təhlükəsizliyi standardlarına olan uyğunluğunu müəyyən etmək

Beləliklə, Azərbaycan Respublikasında bitkiçiliyin inkişafı üçün yeni aqroparkların yaradılması və heyvandarılığın inkişafı və qorunması üçün xüsusi müşahidə proqramın hazırlanması, ərzaq təhlükəsizliyinin təmin olunması və inkişafı üçün müvafid dünya təcrübələridir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Bu dissertasiyada həyata keçirilmiş analizlər, ölkədə ərzaq təhlükəsizliyi ilə əlaqəli bir sıra nəticələrin çıxarılmasına və müəyyən tövsiyələrin verilməsinə şərait yaradır. Beləki, Azərbaycan Respublikası ərazisində  ərzaq təhlükəsizliyinin təmin olunmasnda ən əsas problemlərdən başlıcası vahid informasiya sisteminin mövcud olmaması ilə əlaqədardır. Beləki, ölkənin ərzaq istehsalı və tələbatı ilə bağlı məlumatların vahid bir sistemdə cəmləşməməsi Azərbayca Respublikasında bu sahə ilə əlaqəli olan problemlərin aydınlaşdırılmasına əngəl törədir. Bundan əlavə, kənd təsərrüfatı sahəsindəki inkişafın ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühim rol oynayır. Belə ki, əhalinin keyfiyyətli və yetəri sayda kənd təsərrüfatı məhsulları ilə təmin olunması ərzaq təhlükəsizliyinə müsbət təsir göstərir. Azərbaycan Respublikasında aqrar sahənin inkişafı üçün münbit şərait mövcuddur, çünki kənd təsərrüfatl üçün lazımi olan torpaq və iqlim şəraiti mövcuddur. Azərbaycanda son illərdə kənd təsərrüfatının, bitkiçilik, heyvandarlıq, və meyvəçilik və tərəvəzçilik kimi sahələrindəki istehsal artımı, ölkəyə gələcəkdə həm daxili həmdə xarici bazarda ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamağa şərait yaradır. Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsində dövlətində mühüm rolu vardır, çünki həyata keçirilən effektiv dövlət proqramları nəticəsində daxili bazarda yüksək keyfiyyətə sahib olan yetəri həcmdə məhsul çıxarılmışdır. Belə dövlət proqramlarından biridə Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ilə əlaqədardır. Beləki, agentlik ölkə daxilindəki mövcud məhsulların standardlara uyğunluğunu müəyyən edir və əhalinin keyfiyyətli məhsullara əlyetərliliyini təmin edir. Bundan əlavə, aqroparkların yaradılması və inkişafı da dövlət tərəfindən ərzaq təhlükəsizliyinin təmin olunmasə məqsədilə həyata keçirilən tədbirlərdəndir. Beləki, aqroparkların mövcudluğu və fəaliyyəti əhalinin ilin bütün fəsillərində kənd təsərrüfatı məhsullarına olan tələbatını təmin edir. Bundan əlavə, aqroparklar kənd təsərrüfatı ilə məşğul olan fermerlərin daha intensiv istehsalla məşğul olmasını təmin edir. Buna görə də, ölkədə əhalinin ərzaq təhlükəsizliyi ilə təmin edilməsində ölkənin mövcud resurslarının və dövlət proqramlarının mühüm rolu vardır. Bu səbəbdən, artmaqda olan ölkə əhalisini

ərzaq təhlükəsizliyi ilə əlaqədar görülən tədbirlər nəticəsində daha keyfiyyəti və daha çox miqdarda qida ilə təmin edilməsi mümkündür.

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin olunmasındakı müsbət artıma baxmayaraq, hələdə müəyyən inkişaf istiqamətləri mövcuddur. Bunlar isə aşağıdakılardır:

- Ərzaq təhlükəsizliyi ilə əlaqəli vahid informasiya portalının yaradılması və bu sahə ilə bağlı bütün məlumatların bir sistemdə inteqrasiyası ən vacib inkişaf istiqamətlərindəndir. Beləki, vahid informasiya sisteminin olmaması ərzaq təhlükəsizliyi ilə əlaqəli mövcud vəziyyətin və problemlərin aydılaşdırılmasına əngəl törədir. Bu səbəbdən, belə bir portalın yaradılması ərzaq təhlükəziliyi ilə bağlı məlumatların daha qısa müddətdə əldə edilməsinə və təhlil edilməsinə şərait yaradacaqdır.
- Kiçik həcmli torpaq sahələrinin birləşdirilərək irihəcmli təsərrüfat sahələrinin yaradılması digər bir inkişaf istiqamətidir. Beləki, kiçik həcmli təsərrüfat sahələrinə investisiya cəlb etmək və müasir texnologiyaları tətbiq etmək olduqca məhduddur, hansıki ölkənin ümumi istehsal həcmini qısıtlayır. Lakin, kiçik həcmli torpaq sahələrinin irihəcmli təsərrüfat sahələrinə inteqrasiyası ölkənin aqrar sahədəki istehsalına ciddi şəkildə təsir edəcəkdir. Bu səbəblə, kiçik həcmli torpaq sahələrinə sahib olan fermerlərin irihəcmli təsərrüfat sahələrinə inteqrasiyasını surətləndirmək lazımdır.
- Kənd təsərrüfatını sənayə ilə daha çox əlaqələndirilməsi isə ölkənin ərzaq təhlükəsizliyi ilə təmin edilməsi üçün digər bir inkişaf istiqamətidir. Beləki, kənd təsərrüfatında istehsal edilən müəyyən məhsulların sənayedə xammal kimi istifadə edilməsi, bu iki iqsitadi sahənin inkişafı üçün səciyyəvi bir şərait yaradır. Digər tərəfdən, müxtəlif sənaye məhsullarının kənd təsərrüfatında istehsal prosesində işlənməsidə, bu iki iqtisadi sahələrin qarşılıqlı inkişafına şərait yaradır. Bu səbəbdən, Azərbaycan Respublikasında kənd təsərrüfatı ilə sənaye sahəsi daha da əlaqələndirilməlidir, çünki bu iqtisadi sahələrin kooperasiyası ölkədə ərzaq istahsalına və təminatına müsbət təsir göstərir.

- Aqroparkların sayının artırılması və onların bərpa olunan enerji ilə təmin edilməsi də ölkədə ərzaq təhlükəsizliyinin inkişaf istiqamətlərindəndir. Hazırda, ölkədə fəaliyyət göstərən aqroparklarının istehsal və tutum potensialı digər ölkələrdə fəaliyyət göstərən aqroparkların istehsal və tutum potensialından aşağıdır. Mövcud aqroparklarının həcminin və ərazisinin artırılması ölkə əhalisinin ərzaq təminatına müsbət təsir göstərəcəkdir. Bundan əlavə, istixanaların bərpa edilən enerji ilə təchiz edilməsidə aqroparkların təbiətə mənfi təsir göstərməsinin qarşısını alacaqdır, beləki hazırda fəaliyyət göstərən istixanalar fosil yanacaq hesabına fəaliyyət göstərir hansıki təbiətə mənfi təsir göstərir. Bu səbəbdən, aqroparkların bərpa olunan enerji ilə təmin edilməsi kənd təsərrüfatı istehsalının ekologiyaya mənfi təsirinin qarşısını alacaqdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində

1. Azərbaycan 2020 -(2012) : “Gələcəyə Baxış adlı İnkişaf Konsepsiyası”, Bakı;

2.“Azərbaycan Respublikasinin Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xeritesi”(2016) , Bakı;

3. Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi sisteminin inkişafi ilə bağlı əlavə tədbirlər görülməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı(2017),Bakı, 5s;

4.“Azərbaycan Respublikasinda Kənd Təsərrüfatı Məhsullarnın İstehsalına və Emalın üzrə “Strateji Yol Xəritəsi”(2016), Bakı;

5. Azərbaycan Respublikası Dövlət Statstika Komitəsi (2017) - “Azərbaycan Kənd Təsərrüfatı”, Bakı ,608s;

6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2019)- “Azərbaycan Respublikasının Makroiqtisadi göstəriciləri” ;

7. Abasov, İ.D. (2013)- “Azərbaycanın və Dünyanın Kənd Təsərrüfatı”, Bakı 589s.

8. Əliyeva, A. (2013)-“Azərbaycan Respublikasında Ərzaq Bazarının Transformasiya Problemləri “, Bakı, 154s;

9. FAO (2018) -“Organic Agriculture in Azerbaijan”, Bakı, 104s;

10. Həsənov. R., İsmayılova, G., və Əliyeva, R.(2015)- “Kənd Təsərrüfatı İlində Azərbaycan Respublikasında aqroparkların formalaşdırılması mexanizmləri və fermərlərin prosesdə iştirakçılığının gücləndirilməsi”, Bakı, 85s;

11. Həşimov, R.(2014) – “Azərbaycanda aqrar islahatların reallaşmasının dövlət təminatı”, Bakı,118s;

12. Hoes, A. C., Regeer B. və Zweekhorst M. ( 2012)- “Gələcəklə bağlı innovasiya layihələri və baxışlar: Aqropark layihəsində ambisiya , öhdəlik,zəncir və şəbəkə elmi Jurnalı”, Bakı,14s;

13. Hüseynov, M.C., Əmrahov, V.T., Qasımov, A.M.., və Nərimanov, N.A.( 2013) -”Aqrar İstehsal Strukturunun Diversifikasiyası (Gəncə-Qazax İqtisadi Rayonunun Timsalında)”, Bakı,168s;

14. İbrahimov İ. (2016)–"Aqrar Sahənin İqtisadiyyatı", Bakı, 656s;
15.Qida Təhlükəsizliyi Agentliyi-(2019). – "Azərbaycan Respublikasının Qida Təhlıükəsizliyi Agentliyinin Əsasnaməsi", Bakı, 40s;
16.Qurbanzadə, A.(2017)- "Ərzaq Kompleksinin Modernizasiyası Dayanıqlı,İnkişaf Problemləri", Bakı , 192s;
17.Mirzəliyeva,G.(2015)- "Dünyanın Ərzaq Təhlükəsizliyi və Onun Möhkəmləndirilməsi Yolları", Bakı,99s;
18. Musayev, V . (2017)- "Qida Təhlükəsizliyi Agentliyi", Bakı,6s;
19.Yusifli, E.(2018)-"Aqroparklar üzrə milli brend – Yalama Aqropark," Bakı, 10s;

**Xarici dildə**

1.Acheson D. (2011) – "Slides on food safety and legislation. *Food Journal"*, 102(6), 21s;
2.Buzby J.C., Unnevehr B.J.(2018)- "International Trade and Food Safety: Economic Theory and Case Study"., 145s;
3. Canadian Food Inispection Agency (CFIA).(2006) – "Food Safety Risks and Plant Health with in the Canadian Food Inispection ,Risk Analytics Framework to Adress Animal Health", 120s;
4. CDC.-Foodborne illnesses (*2010*)."*International Food Safety Consultancy"*.
5. FSA.(2014) – "The Food Hygiene Rating Scheme: Guidance for local authorities on implementation and operation: The Brand Standard"., 88s;
6. FAO(2018) – "The State of Nutrition and Food Security in The World".; 202s.
7. Fein S. B., Lando A.D., Levy A.S., Teisl M.F., Noblet C. (2011)– "Trends in U.S. Consumers' Safe Handling and Consumption of Food and Their Risk Perception. *Journal of Food Protection"*, 20s;
8. Knox R.B., Kane K., Neighbour S.(2016) – "Approaches to Risk Management Hazard Control and Food Safety: "*İnternational Journal of Management and Applied Science* "A Case Study of Preston City Council's Food Safety Compliance Strategy., 3(1), 29s;

9. Keener K. (2003)– "Overview of Hazard Analysis Critical Control Point. *Purdue* University", 11s;

10. Kowalczyk S.(*2016*) – "Food safety versus an individual in the theory of economics. *Problems of Agricultural Economics",* 19s;

11. Langsrud S., Granum E.(2013) –" Food Handling Practice and Knowledge of Food Safety among Norwegian Consumers. *Norwegian School of Veterinary Science"*, 88s;

12. National Marine Fisheries Service (NMFS) (2010) –" U.S. Department of Commerce: Imports and Exports of Fishery Products: Annual Summary"., 29s;

13. Martin A. - African Cities.( 2003) "Bulletin on Food Safety for Health Workers. *World Health Organization"*, 28s;

14. Roosen J.(2003) – "Marketing of Safe Food Through Labelling. *Journal of Food Distribution Research",* 34(3), 6s;

15. USDA (2019) – "World Agricultural Supply and Demand Estimates";

16. World Health Organization (WHO)(2007). – "*Food Safety and Food-borrne Illness*. Fact Sheet 237*"*,117s;

17. Wandolo M.A.(2016) – "Food Safety and Hygiene Practycies: A Comparative Study of Vocational Education and Selected Technical and University Hospitality Schools in Kenya Training ". Kenya ,223s;

## İnternet resursları

1. www.e-qanun.az/framework/doc/4467
2. https://www.stat.gov.az/menu/2/quality/az/lecture/agrc_04.pdf
3. http://www.sehiyye.gov.az/files/pdf/qida_mehsullari_tehlukesizlik.pdf

## Cədvəllərin siyahısı

**Cədvəl 1.**Dünya üzrə əhalinin yetəri qidalanmama göstəricisi (faiz ilə).................31

**Cədvəl 2.** Dünya Ərzaq Bazarı (milyon ton ilə)............…...................................33

**Cədvəl 3.** Kənd Təsərrüfatı Bitkilərinin Əkin Sahələri (min hektar ilə).................37

**Cədvəl 4**. Qarğıdalı ehtiyatı (ton) ......................................................................38

**Cədvəl 5**. Dənli və dənli paxlalıların ehtiyatları (ton) ..........................................38

**Cədvəl 6**. Bitkiçilik Məhsullarının Növləri Üzrə İstehsalı (Min ton ilə).................39

**Cədvəl 7**. Buğda ehtiyatları (ton) ........................................................................39

**Cədvəl 8**. Meyvə İstehsalı (ton) ..........................................................................41

**Cədvəl 9**. Meyvə və giləmeyvələrin ehtiyatları (ton) .............................................41

**Cədvəl 10**. Heyvandalığın Sahələri Üzrə İstehsal ..................................................43

**Cədvəl 11**. Süd və süd məhsulları ehtiyatları (ton) ................................................45

**Cədvəl 12**. Bütün növ ət və ət məhsulları ehtiyatları (ton) .....................................46

**Cədvəl 13**. Kartof ehtiyatları (ton) .......................................................................47

## Şəkillərin siyahısı

**Şəkil 1**:Kənd təsərrüfatı bitkilərinin əkin sahələri...................................................34

## Qrafiklərin siyahısı

**Qrafik 1**. Bəzi ixracat məhsullarının məhsuldarıq qrafiki (ha)...............................34